QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 193 (5665) **12 oktyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba rayonuna səfər ediblər*

Səh 3



7

**Novruz Məmmədov Nazirlər Kabineti Aparatının iclasını keçirib**



7

**Səməd Seyidov: AŞPA-da ikili standartlar hələ də davam edir**



9

**Berlindən Yerevana dəyən "sillə"...**



# Xızı rayonunda "Yeni Yaşma" Külək Elektrik Parkı istifadəyə verilib



**Oktyabrın 11-də Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisindəki 50 MVt-luq "Yeni Yaşma" Külək Elektrik Parkının açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Dövlətimizin başçısı və xanımı Külək Elektrik Parkının rəmzi açılışını bildirən lenti kəsdilər.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev məlumat verdi ki, "Yeni Yaşma" Külək Elektrik Parkı bu il yenidən qurulub. Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrində yerləşən Külək Elektrik Stansiyasında yenidənqurma işlərini Almaniyanın "Berlin Wind" şirkəti aparıb. Yanvar ayında ilk turbin işə salınmaqla ay üzrə cəmi 200 min kVt/saat elektrik enerjisi istehsal olunurdusa, hazırda 20 külək turbini tam gücü ilə işləyir və elektrik enerjisinin istehsalı ay üzrə 9 milyon kVt/saata yaxındır. Parkın ərazisində inzibati bina inşa edilib, burada idarəetmə mərkəzi, işçi heyəti üçün xidməti otaqlar, habelə elektrik avadanlığının-yuvaların quraşdırılması üçün 20 kV-luq bölmə və Təlim-Tədris Mərkəzi yaradılıb. İdarəetmə mərkəzində turbinlərin iş rejimləri, istismar vəziyyəti, texniki parametrləri, küləyin sürəti, növbəti günlər üçün külək proqnozu və enerji istehsalı onlayn izlənilir. Stansiyanın səmərəli fəaliyyətini təmin etmək üçün müasir tipli rele mühafizəsi, avtomatika və SCADA sistemi yaradılıb. İstehsal olunan elektrik enerjisinin ümumi enerji sisteminə ötürülməsi üçün "Yaşma" hava xəttinə qoşulmaqla "Sitalçay" yarımstansiyasına 110 kV-luq hava xətti çəkilib. Bir sıra xarici şirkətlər tərəfindən yerli mütəxəssislər üçün treninqlər təşkil edilib, həmçinin xarici ölkələrdə keçirilən müxtəlif sertifikatlaşdırılmış kurslarda yerli mütəxəssislərin iştirakı təmin olunub.

Hazırda stansiyanın idarə edilməsi, servis və istismar işləri tamamilə yerli mütəxəssislər tərəfindən icra olunur. Parkda alternativ və bərpaolunan enerji mənbələri üzrə kadr hazırlığı məqsədilə xüsusi Təlim-Tədris Mərkəzi fəaliyyət göstərir. Parkın ümumi ərazisi 540 hektardır. Burada 9800 poqonmetr uzunluğunda qəfəsli çəpər çəkilib, ümumi sahəsi 571 kvadratmetr olan anbar binası tikilib, gübrə və yağ depoları, zəhərli maddələrin saxlanılması üçün xüsusi otaq və xidməti bölmələr yaradılıb. Ərazidən səmərəli istifadə olunması üçün torpaq nümunələri İtaliyada laborator müayinədən keçirilib və nəticələrə əsasən 450 hektar sahədə zeytun və badam bağları salınıb. Bağların suvarılması məqsədilə Taxtakörpü-Ceyranbatan su kanalının 72-ci kilometrliyində suqəbuledici baş qurğu tikilib, 23 kilometrlik su xətti çəkilib, su anbarı və nasos stansiyası inşa edilib. Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 55-ci kilometrliyindən 1,8 kilometrlik yeni avtomobil yolu çəkilib.

"Yeni Yaşma" Külək Elektrik Parkı Cənubi Qafqazın ən böyük külək elektrik parkıdır. Stansiyanın istismara verilməsi nəticəsində Azərbaycanda alternativ enerjinin ümumi istehsalda payı 0,7 faizdən 1,8 faizədək artacaq.

Dövlətimizin başçısına 3,6 MVt gücündə Yaşma Bağları Külək Elektrik Parkı və 1,7 MVt gücündə Şuraabad Külək Elektrik Parkı barədə də məlumat verildi. Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq Bakı-Quba yolunun digər tərəfində yerləşən Yaşma Bağları ərazisindəki 4 turbin təmir olunaraq, istismara hazır vəziyyətə gətirilib. Elektrik enerjisinin şəbəkəyə ötürülməsi üçün 35 kV-luq yarımstansiya inşa edilib və 3,8 kilometr uzunluğunda hava xətti çəkilib. Şuraabad Külək Elektrik Parkında da 1,7 MVt gücündə 2 turbinlə bağlı təftiş işləri aparılıb, stansiyaya məxsus 35 kV-luq yarımstansiya elektrik enerjisinin şəbəkəyə ötürülməsi üçün yenidən qurularaq istismara verilib. Turbinlərin idarə edilməsi SCADA sisteminə inteqrasiya olunub. Sonda Külək Elektrik Parkının kollektivi ilə xatirə şəkli çəkdirildi.







## *Rəsmi xronika*

Prezident İlham Əliyev Quba şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev İspaniya Kralı VI Felipeyə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Əlahəzrət, İspaniya Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram. Bu bayram günündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost İspaniya xalqına daim sülh və firavanlıq diləyirəm".

***

Prezident İlham Əliyev Quba rayonunun Alekseyevka kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Quba-Qonaqkənd avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Quba rayonunun Susay-Xınalıq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba rayonuna səfər ediblər*

***Oktyabrın 11-də Quba rayonunun İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Asperəsti-Çayqışlaq avtomobil yolu istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 yaşayış məntəqəsini birləşdirən və uzunluğu 33 kilometr olan yolun açılışını edib.***

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov məlumat verdi ki, dördüncü texniki dərəcəyə uyğun tikilən iki hərəkət zolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. Bütün texniki standartlara uyğun salınan yol üzərində zəruri yerlərdə siqnal dirəkləri, yol nişanları və göstərici lövhələr quraşdırılıb. Ümumi uzunluğu 528 metr olan su ötürücü borular tikilib, yol cizgi xətləri çəkilib. Avtomobil yolunun tikintisi 11 yaşayış məntəqəsini birləşdirərək sərnişin və yük daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək. Beləliklə, yeni yol mənzil başına rahat və təhlükəsiz çatmağa hərtərəfli şərait yaradacaq. Bu layihənin icrası, ümumilikdə, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini də təmin edəcək. Bir sözlə, yeni yolun inşası yolboyu yaşayan vətəndaşların sosial rifahına birbaşa təsir göstərəcək, kənd təsərrüfatı məhsullarının rahat və tez daşınmasına münbit şərait yaradacaq.



Dövlətimizin başçısına Quba-Xaçmaz avtomobil yolunun yenidən qurulması barədə də məlumat verildi. Bildirildi ki, regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun yenidən qurulan yol 78,4 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirir. 3-cü texniki dərəcəyə aid 2 zolaqlı yolun uzunluğu 22 kilometr, eni isə 7 metrdir.

Bundan əlavə, Prezident İlham Əliyevə Quba-Qonaqkənd avtomobil yolunun tikintisinin layihəsi barədə məlumat verildi. Layihə ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, dördüncü texniki dərəcəyə uyğun inşa olunacaq yolun uzunluğu 55,7 kilometr, hərəkət hissəsinin eni 6 metrdir. İki hərəkət zolağından ibarət olan yolun tikilməsi bu bölgədə təxminən 5 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini, həmçinin Quba şəhərini Xınalıq kəndi ilə birləşdirərək sərnişin və yük daşınmasını xeyli yaxşılaşdıracaq. Sonra dövlətimizin başçısı Quba rayonunun İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Asperəsti-Çayqışlaq avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 11-də Kənd Təsərrüfatı Nazirliyinin Qubadakı Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun əsaslı təmirdən sonra fəaliyyəti ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və xanımı elmi-tədqiqat institutunun binasında yaradılan şəraitlə maraqlanıblar.

Kənd təsərrüfatı naziri İnam Kərimov bildirdi ki, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu 1926-cı ildə fəaliyyətə başlayıb və 1964-cü ildən Quba rayonunun Zərdabi qəsəbəsində yerləşir. İnstitutda 59 nəfər işçi çalışır, onların arasında elmlər və fəlsəfə doktorları var. Prezident İlham Əliyevin 2015-ci ildə imzaladığı Kənd Təsərrüfatı Nazirliyi sistemində fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi haqqında sərəncamına əsasən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun ümumi sahəsi 3504 kvadratmetr olan inzibati-laboratoriya binası əsaslı təmir edilib, kommunal sistemləri yenilənib, yardımçı təsərrüfat binaları tikilib. İnstitutda müasir avadanlıqlarla təchiz olunmuş torpaq, bitki və su analizi ilə məşğul olan aqroekologiya və analiz, bitkilərin mikroklonal çoxaltma üsulu ilə artırılması laboratoriyaları yaradılıb.

Prezident İlham Əliyevə əsas hədəfi ixrac potensialının gücləndirilməsi, bağçılığın dayanıqlı inkişafı, keyfiyyətli məhsul istehsalı və innovativ fermerlərin formalaşmasına dəstək olan "Ağıllı bağ layihəsi" barədə məlumat verildi.

Ardı Səh. 4



# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba rayonuna səfər ediblər*



Əvvəli Səh. 3

Həmçinin ixtisaslı mexanizatorların vahid reyestri, fermerlər və mexanizatorları əlaqələndirəcək vahid kommunikasiya sisteminin yaradılması, mexanizatorların peşəkarlıq səviyyəsi və digər göstəricilərinin ölçülməsi və onların ölkə üzrə lokasiyasının öyrənilməsi məqsədini daşıyan "AqroUber" layihəsindən də danışıldı.

Dövlətimizin başçısına yeni yaradılan Dövlət Aqrar Ticarət Şirkətinin fəaliyyəti barədə məlumat verilərkən bildirildi ki, indiyə qədər 300-dən çox fermerin müraciətinə baxılıb. Onlardan alınan 300 min kiloqramdan çox məhsul satışı çıxarılıb. Bu yaxınlarda Cocuq Mərcanlıda 15 fermerin məhsulunun satışı məqsədilə memorandum imzalanıb. Azərbaycan Prezidentinə "Kənddən Şəhərə" layihəsi haqqında da məlumat verildi. Qeyd olundu ki, layihə çərçivəsində müasir tipli yarmarkaların təşkili, pərakəndə satış mərkəzlərinin qurulması, online sifariş üçün mobil tətbiqin yaradılması nəzərdə tutulur.

Oktyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar. AZƏRTAC xəbər verir ki, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev abidənin ətrafında aparılan abadlıq işləri, ümumilikdə, rayonda icra olunan layihələr barədə dövlətimizin başçısına məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 11-də Quba Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və xanımı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdilər.

Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına tibb müəssisəsində yaradılan şərait barədə məlumat verdi. Qeyd olundu ki, Quba Rayon Mərkəzi Xəstəxanası 1964-cü ildə istifadəyə verilib, lakin uzun illər təmir işlərinin aparılmaması səbəbindən bina istismara yararsız vəziyyətdə idi. 230 çarpayılıq yeni xəstəxana binasının tikintisi ilə əlaqədar 2015-ci ildə başlayan inşaat işləri bu ilin sentyabrında başa çatdırılıb. Xəstəxana binasında müasir tibbi avadanlıq quraşdırılıb. Cərrahiyyə, terapiya, uşaq xəstəlikləri, nevrologiya, ginekologiya, travmatologiya şöbələrinin yaradıldığı bu tibb müəssisəsində LOR, infeksion xəstəliklər, şüa-diaqnostika, reanimasiya, qəbul, laboratoriya, təcili tibbi yardım şöbələri və Perinatal Mərkəz də fəaliyyət göstərəcək. Ərazidə əsas korpusla yanaşı, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Quba rayon şöbəsi və digər yardımçı sahələr üçün binalar inşa olunub.

Sonra Prezident İlham Əliyev səhiyyə ocağının kollektivi ilə görüşdü. Həkim Kəmalə Heybətova dövlətimizin başçısına onlara göstərdiyi diqqət və qayğıya görə təşəkkür etdi. Sonda xatirə şəkli çəkdirildi.

Oktyabrın 11-də Quba şəhərində 100 yerlik "Günəş" körpələr evi-uşaq bağçası açılıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Dövlətimizin başçısı və xanımı körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdilər.

**Ardı Səh. 5**







# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba rayonuna səfər ediblər*

Əvvəli Səh. 4

Bağçada yaradılan şəraitlə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, körpələr evi-uşaq bağçasının inşasına ötən il başlanılıb. Bu ilin sentyabrında isə tikinti işləri yüksək keyfiyyətlə başa çatdırılıb. Ümumi sahəsi 1439 kvadratmetr olan bina ikimərtəbəlidir. Yataq, yemək və istirahət otaqlarının olduğu bağçada uşaqlar üçün musiqi otağı və idman zalı yaradılıb. Burada balacaların təlim-tərbiyəsi və onların ilkin biliklərə yiyələnmələri üçün hər cür şərait var. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Körpələr evi-uşaq bağçasında 25 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.

Oktyabrın 11-də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin Qubada "ABAD Factory" İstehsalat Kompleksinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin açılışında iştirak ediblər.



Dövlətimizin başçısı və xanımı kompleksin rəmzi açılışını bildirən lenti kəsdilər, burada yaradılan şəraitlə tanış oldular. Prezidentin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, həmçinin "ABAD" publik hüquqi şəxsin direktoru Rüfət Elçiyev bildirdilər ki, "Quba ABAD Factory" İstehsalat Kompleksinin yerləşdiyi bina 1956-cı ildə "Mədəniyyət evi" qismində istifadəyə verilmiş və uzun illər istismar nəticəsində yararsız vəziyyətdə düşmüşdü. İkimərtəbəli binada "ABAD" publik hüquqi şəxs tərəfindən "Paşa Holding"in dəstəyi ilə əsaslı şəkildə təmir-bərpa işləri aparılıb və müasir avadanlıq quraşdırılıb. Kompleksdə bir dəfəyə 140 kiloqram quru meyvə, istehsal gücü saatda 110 kiloqram olan qənnadı məmulatı və 1200 banka olan kompot, gündəlik min litr süd və 600 kiloqram ət məhsulları istehsal edən 5 sahə fəaliyyət göstərəcək. Kompleksin hər istehsal sahəsində növbəlilik prinsipi əsasında 30 nəfərdən ibarət iki "ABAD"çı ailə çalışacaq. Bununla da 30-dək vətəndaş "ABAD" publik hüquqi şəxsin əməkdaşı kimi işlə təmin ediləcək. Bundan əlavə, istehsal prosesində ABAD-çıları xammalla təchiz edəcək yeni ABAD-çıların prosesə qoşulması da nəzərdə tutulur ki, bu da, ümumilikdə, regionda yaşayan 70-80 ailənin məşğulluq və əlavə gəlir əldə etməsinə şərait yaradacaq. "Paşa Holding"in dəstəyi ilə "ABAD" publik hüquqi şəxs tərəfindən həyata keçirilən "ABAD Gastro Village" layihəsi çərçivəsində isə "Quba ABAD Factory"nin önündə "Food truck park"ı yaradılıb.

Həmin gün "Qubaekoaqrar" Məhdud Məsuliyyətli Cəmiyyətinin kənd təsərrüfatı mallarının istehsalı zavodu istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva zavodun açılışında iştirak ediblər.











Əvvəlcə iqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına Quba-Xaçmaz iqtisadi rayonunda İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun maliyyə dəstəyi ilə regionda yaradılan və fəaliyyəti genişləndirilən müəssisələr barədə məlumat verdi. Bildirildi ki, bu iqtisadi rayonda ümumi dəyəri 376 milyon manat olan 2624 layihənin maliyyələşdirilməsinə 201 milyon manat güzəştli kredit verilib. Bu çərçivədə yaradılan müəssisələr xarici ölkələrə məhsul ixracına başlayıb. Belə ki, Xaçmazdakı fındıq emalı zavodu ötən il 2 milyon dollar dəyərində fındıq, Logistika Mərkəzi və meyvə emalı zavodu 500 min dollar dəyərində quru meyvə, Qusarda Regional Logistika Mərkəzi isə 6,2 milyon dollarlıq meyvə ixrac edib. Keçən il 186,4 min hektar meyvə bağından, ümumilikdə, 955 min ton meyvə istehsal olunub. Məhsulun 29 faizi əsasən Rusiya, Ukrayna, İtaliya, İsveçrə və Almaniya olmaqla, xarici bazarlara ixrac edilib. Ötən il Quba-Xaçmaz iqtisadi rayonu üzrə 263,3 min ton meyvə yığılıb ki, bunun 125,2 min tonu Qubanın payına düşür. Sonra dövlətimizin başçısı zavodu işə saldı. İqtisadiyyat naziri Şahin Mustafayev və müəssisənin rəhbəri Emin Məmmədzadə zavodda görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdilər.

Oktyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba şəhərində salınan Gənclər Parkında yaradılan şəraitlə tanış olublar. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına parkda görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, parkın inşasına bu ilin fevralında başlanılıb. Ərazisi 0,66 hektar olan bu istirahət məkanı 4 hissədən ibarətdir. Burada yaşlı insanlar üçün hissə, idman zonası, gənclər və uşaqlar üçün guşələr yaradılıb. Bundan başqa, Gənclər Parkında 300 kvadratmetr sahəsi olan 2 mərtəbəli restoran da fəaliyyət göstərəcək. Parkda söhbətgahlar quraşdırılıb, uşaqların vaxtlarını səmərəli keçirmələri üçün attraksionlar qoyulub, geniş yaşıllıq zonaları salınıb, müxtəlif dekorativ ağac və gül kolları əkilib, işıqlandırma sistemi yaradılıb. Bir sözlə, bu parkda Quba sakinləri və qonaqlarının istirahəti üçün hərtərəfli şərait var.

Qeyd edək ki, ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində çoxşaxəli tədbirlər görülür. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti uğurlu nəticələrlə yadda qalır. 2005-2009-cu illəri əhatə edən "Azərbaycan Gəncliyi Dövlət Proqramı" bu prosesdə çox mühüm rol oynayıb. "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı da bu tədbirlərin məntiqi davamı kimi çıxış edib. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, dövlətçilik prinsiplərinə, həmçinin tarixi-mədəni keçmişimizə, milli-mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Əsas məqsəd təbii ki, onların cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Ölkəmizin bölgələrində müasir tələblərə cavab verən sosial infrastruktur obyektləri tikilir. Qubada salınan Gənclər Parkı da bu məqsədə xidmət edir.

# Dünyanı heyrətə gətirən 10 səs - “Turetski xoru” Heydər Əliyev Mərkəzində çıxış edib



**Oktyabrın 10-da Rusiyanın məşhur “Turetski xoru” Heydər Əliyev Mərkəzinin səhnəsində çıxış edib. AZƏRTAC xəbər verir ki, anşlaqla keçən konserti izləyənlər arasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva da olub.**









Art qrup konsert proqramında repertuarında olan ən məşhur kompozisiyaları təqdim edib. Nadir səsə, geniş vokal imkanlara, aktyor ustalığına və qeyri-adi xarizmaya sahib ifaçılardan ibarət “Turetski xoru” debütünü 1990-cı ildə edib. Qrupun yaradıcısı və bədii rəhbəri Rusiyanın Xalq artisti Mixail Turetskidir. Kollektivin repertuarı sərhədsizdir, qrup dünya klassikasından rokadək, pop musiqisindən operayadək, cazdan xalq mahnılarınadək müxtəlif janrlarda ifa edir.

“Turetski xoru”nun repertuarında 10-dan çox dildə kompozisiyalar yer alıb. Bu qrupu populyarlıq rekordçusu adlandıranlar da var, çünki səhnəyə 6 min dəfədən çox çıxıb, turnelər zamanı 4,5 milyon kilometr yol qət edib. Kollektiv Rusiyanın müxtəlif şəhərlərində mütəmadi konsertlər verməklə yanaşı, tez-tez Baltikyanı ölkələrdə, Almaniya, Amerika Birləşmiş Ştatları, Kanada, İsrail və Belarusda qastrollarda olur. Qrup İspaniya, Niderland, Belçika, İsveçrə, Avstraliya, Çin və Vyetnamda da çıxış edib. Təkcə bu ilin mayında musiqi marafonu çərçivəsində 10 gün ərzində 7 ölkənin müxtəlif şəhərlərində - Paris, Lyublyana, Vyana, Berlin, Təl-Əviv, Nyu-York və Minskdə konsertləri olub. Qrupun konsert proqramları hər zaman anşlaqla keçib. 2015-ci il mayın 9-da Moskvada təqdim etdiyi “Qələbə mahnıları” adlı konsert proqramına rekord auditoriyasını - 150 min tamaşaçısını toplayıb. Kollektivin özünəməxsus xüsusiyyətlərindən biri də istənilən auditoriyanı oxuda bilmək bacarığıdır. Fərqli dillərdə hitlər səsləndirən “Turetski xoru”nun Azərbaycan tamaşaçılarına sürprizi də oldu: qrup doğma dilimizdə Müslüm Maqomayevin məşhur “Azərbaycan” mahnısını ifa etdi.

Konsertdən sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva “Turetski xoru”nun kollektivi ilə görüşdü, onlarla xatirə şəkli çəkdirdi.

## Novruz Məmmədov Nazirlər Kabineti Aparatının iclasını keçirib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında qaldırılan məsələlərlə əlaqədar Baş nazir Novruz Məmmədovun yanında Nazirlər Kabineti Aparatının iclası olub.

Nazirlər Kabinetinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, sosial-iqtisadi sahədə ölkəmizin əldə etdiyi uğurlu nəticələrdən, iqtisadi islahatların daha da dərinləşdirilməsi istiqamətində aparılan məqsədyönlü işlərdən danışan Baş nazir Novruz Məmmədov vurğulayıb ki, iclasda Prezident İlham Əliyevin qeyd etdiyi kimi, beynəlxalq mövqeləri daha da möhkəmlənən Azərbaycan regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın inkişafına töhfə verir. Eyni zamanda, ölkəmizdə iqtisadiyyat sahəsində islahatların dərinləşməsi, iqtisadiyyatın rəqabətliliyinin artırılması üçün önəmli addımlar atılır. Xüsusən, sənaye istehsalında, qeyri-neft sektorunda mühüm işlər görülür. Ölkədə makroiqtisadi vəziyyət sabitdir, investisiya və infrastruktur layihələri ardıcıl icra edilir, əhalinin aztəminatlı hissəsinin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, məcburi köçkünlərin sosial problemləri daim dövlətin diqqət mərkəzindədir. Dövlətimizin başçısının dediyi kimi, bu il Cənub Qaz Dəhlizinin, TANAP layihəsinin açılışları böyük nailiyyətlərdir. Bu yaxınlarda "Azerspace-2" peykinin orbitə çıxarılması, həmçinin Sumqayıtda, Mingəçevirdə, Masallıda Sənaye parklarının yaradılması uğurlu işlərimizdəndir. İnfrastruktur layihələri ilə bağlı nəzərdə tutulan bütün məsələlər öz müsbət həllini tapır. Kənd təsərrüfatının inkişafına, bölgələrdə məşğulluğun artırılmasına dövlət qayğısı da öz yüksək səmərəsini göstərməkdədir. Pambıqçılıq, üzümçülük, meyvəçilik, tərəvəzçilik sahələrində böyük irəliləyişlər müşahidə olunur.

Yekunda sosial-iqtisadi inkişafın nəticələrinə dair ətraflı fikir mübadiləsi aparıldıqdan sonra Baş nazir Novruz Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müşavirədə verdiyi tapşırıqların icrası ilə əlaqədar Nazirlər Kabineti tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərlə bağlı Nazirlər Kabineti Aparatının aidiyyəti şöbələrinə müvafiq göstərişlər verdi.

## Səməd Seyidov: AŞPA-da ikili standartlar hələ də davam edir



AŞPA-da ikili standartlar hələ də davam edir. Qurumda gedən proseslər buradakı ciddi məsələlərə obyektiv yanaşmaya imkan vermir. "Avropa Şurası və BMT-nin insan hüquqları üzrə monitorinq orqanlarının üzv ölkələrə, o cümlədən "boz sahələr"ə məhdudiyyətsiz girişi" adlı məruzənin müzakirələri bir daha göstərdi ki, Azərbaycana, Türkiyəyə qarşı AŞPA-da qeyri-obyektiv, qərəzli mövqelər mövcuddur.

Bu fikirləri AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AZƏRTAC-a müsahibəsində bildirib. Səməd Seyidov qeyd edib ki, Frank Şvabenin təqdim etdiyi məruzədə insan haqları təşkilatlarının adından istifadə edilərək, dövlətlərin ərazi bütövlüyünə müdaxilə etmək cəhdi aydın görünür. Bu, tamamilə beynəlxalq qanunlara ziddir. Müzakirə olunan sənəd əhəmiyyətsiz və AŞPA-nın nüfuzuna xələl gətirən sənəddir. "Əminəm ki, bu sənədin heç bir gələcəyi yoxdur. Qanunun aliliyini qorumaq üçün yaradılmış təşkilat dövlətlərin ərazi bütövlüyü, suverenliyi kimi ən müqəddəs prinsipləri, eləcə də beynəlxalq qanunları pozmaq cəhdini ortaya qoyur. Buna görə də Azərbaycan və Türkiyə nümayəndə heyətlərinin üzvləri buna qarşı çıxdılar", - deyə S.Seyidov vurğulayıb.

## Seymur Orucov: "Bütün dünya dövlətləri Azərbaycanı dəstəkləyir"



"2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının göstəricilərinə baxanda ümumi daxili məhsul 0,8 faiz, kənd təsərrüfatı 4,3 faiz artıb". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, hakim Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

YAP GB sədrinin sözlərinə görə, Azərbaycanın xarici tədiyyə balansı, müsbət saldosu 6,5 milyard manata gəlib çatıb: "Təbii ki, bu da əhalinin ümumiyyətlə ölkə iqtisadiyyatında makroiqtisadi göstəricilərin nə qədər düzgün olduğundan xəbər verir. İkincisi bizim mövqelərimizin gücləndirilməsi məsələsi ondan ibarətdir ki, artıq NATO ilə bağlı keçirilən NATO Zirvəsində yenidən Azərbaycanın ərazi bütövlüyünün tanıdılması, Yekun Akta salınması ölkəmizin ən böyük uğurudur. Qoşulmama Hərəkatının Nazirlər Şurasının Azərbaycanda keçirilən tədbiri dövlətimiz üçün böyük bir siyasi divident gətirən göstəricidir. Biz Dağlıq Qarabağla bağlı danışıqlarda özümüzün mövqeyini onlara göstərdik. Bu məsələdə sərhədlərin toxunulmazlığı isə Azərbaycanın suverenliyidir. Artıq bu məsələlərdə bütün dünya dövlətləri Azərbaycanı dəstəkləyirlər.

Bildiyiniz kimi Azərbaycan tərəfi ilə Avropa İttifaqı arasında "Tərəfdaşlığın prioritetləri" adlı saziş imzalanıb. O sənəddə xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müddəalar həm ədalətlidir, həm də bizim mövqelərimizi, maraqlarımızı tam əks etdirir. Həmçinin sənəddə sərhədlərin toxunulmazlığından, ərazi bütövlüyündən bəhs olunur. Bu bizim siyasi cəhətdən ən böyük uğurlarımızdır. Eləcə də bu yaxınlarda Xəzərin hüquqi statusu ilə bağlı məsələyə yekun vuruldu. Beləcə Xəzərin bölgüsündə Azərbaycanın mövqeləri tam bərpa olundu. Bu da bizim regiondakı növbəti uğurlarımızdan xəbər verir. Bu yaxınlarda Türkiyədə "Star" layihəsinin açılışı olacaq. Bu bizim iqtisadi gücümüzün göstəricisidir. Artıq Azərbaycan ümumi daxili məhsulla bərabər ümummilli məhsul istehsalını da genişləndirməyə başlayıb".

## Dağlıq Qarabağ qadınları Anna Hakopyanın bir qrup rusiyalı qadınla İşğal olunmuş ərazilərimizə səfərini pisləyib



Oktyabrın 11-də "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması"nın Mərkəzi Qərargahında Dağlıq Qarabağ qadınlarının Ermənistanın baş nazirinin həyat yoldaşı Anna Hakopyanın bir qrup qadınla işğal altındakı Dağlıq Qarabağ bölgəsinə səfəri və Anna Akopyanın irəli sürdüyü "Qadınlar Sülh Naminə" kampaniyasına münasibəti mövzusunda konfrans keçirilib və müraciət qəbul edilib.

İcmadan AZƏRTAC-a bildiriblər ki, konfransda əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Torpaqlarımızın bütövlüyü uğrunda həyatlarını itirmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı icması" İctimai Birliyinin sədri Bayram Səfərov çıxış edərək tədbirin keçirilməsini zəruri edən səbəblərdən danışıb. Bildirib ki, Ermənistanın baş nazirinin həyat yoldaşı Anna Akopyanın və bir qrup rusiyalı qadının Azərbaycanın işğal olunmuş ərazisi olan Dağlıq Qarabağa səfəri ictimaiyyət tərəfindən qəti şəkildə pislənir. Çünki bu səfər heç bir halda sülhə xidmət etmir.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Flora Qasımova da dəfələrlə bədnam qonşularımızın bu cür fitnəkarlıqlardan istifadə etdiyini bildirib. Qeyd edib ki, əgər Ermənistanın baş nazirinin həyat yoldaşı sülh çağırışında səmimidirsə, bunu əməldə təsdiq etməlidir. "Öz ata-baba yurdlarını ziyarətə gedən zaman həbs olunan Dilqəm Əsgərov və Şahbaz Quliyev bu gün Ermənistanda girovluqda saxlanırsa, Ermənistan hansı sülhdən danışa bilər",-deyə deputat vurğulayıb.

Milli Məclisin deputatı Məlahət İbrahimqızı Anna Akopyanın sülh çağırışını təxribat adlandıraraq bildirib ki, dəfələrlə Azərbaycan Prezidenti İlham Əliyev regionda sabitliyin təmin edilməsi, sülhün bərqərar olması üçün Ermənistana qoşunlarını işğal olunmuş ərazilərimizdən çıxarmağı məsləhət görüb. Amma Ermənistan hələ də işğalçılıq siyasətini davam etdirir, beynəlxalq hüququn norma və prinsiplərinə əməl etmir.

"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması"nın İctimai Birliyinin idarə heyətinin üzvü, Milli Məclisin deputatı Elman Məmmədov da Anna Akopyanın bu addımını təxribat adlandırıb. Qeyd edib ki, tarixboyu ermənilər xaricdəki havadarlarının köməyi ilə xalqımıza qarşı təxribatlar törədiblər.

Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov erməni tərəfinin sülh çağırışı ilə bağlı səsləndirdiyi fikirlərin səmimi olmadığını deyib. Qeyd edib ki, hələ də bir milyondan çox insan Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkir. Əgər Ermənistan sülh istəyirsə, ilk növbədə, işğalçılıq siyasətindən əl çəkməli, öz qoşunlarını Azərbaycan torpaqlarından çıxarmalıdır.

Tədbirdə çıxış edən xanımlar Anna Akopyanın bu addımını Ermənistan ictimaiyyəti üçün hesablanmış piyar adlandırıblar. Sonda Dağlıq Qarabağ qadınlarının konfransının beynəlxalq təşkilatlara müraciəti oxunub.

## Yunus Oğuz: "Havanı çirkləndirənlərə ikinci xəbərdarlıq olmayacaq"



"Ölkəmizdə prezident seçkilərindən sonra 9 aylıq iqtisadi təhlil ilk dəfədir ki təqdim olunur. Amma burada əsas məsələ Azərbaycan prezidentinin bir sıra problemlərə toxunaraq, onların həll edilməsi ilə bağlı tapşırıqlar verməsi idi". Bu fikirləri SİA-ya açıqlamasında "Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 9 ayın yekunları ilə bağlı keçirilən müşavirədə çıxışına münasibət bildirərkən deyib. Ölkə başçısının havanı çirkləndirən obyekt sahibləri ilə bağlı fikirlərinə toxunan baş redaktor söyləyib ki, bu istiqamətdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən addımlar atılsa da, buna məhəl qoymayanlar olduğu üçün Azərbaycan Prezidenti ikinci xəbərdarlığın olmayacağını söylədi: " Bu o deməkdir ki, obyekt sahibləri bundan sonra daha ciddi ölçü götürməli, tüstünün qarşısını alan cihazlardan istifadə etməlidirlər. Xüsusilə də toy məclisləri zamanı şəhərdə tüstüdən dayanmaq olmur. Ölkə başçısı iclasda şəhər nəqliyyatının təkmilləşdirilməsi məsələsinə də toxundu. Dövlət tərəfindən bu istiqamətdə maliyyə ayrılır, yeni, müasir avtobuslar gətirilir. Amma onlar təəssüf ki, layiq olmayanlara, həkim müayinəsindən keçməyənlərə verilir. Bunun günahını sahibkarlar da axtarmaq lazımdır. İclasda haqlı olaraq bildirildi ki şirkətlər pul qazanmaq üçün heç bir qaydalara əməl etmir, kimlərəsə rüşvət verərək qanunları pozurlar. Prezident tərəfindən həmin şəxslərə də sərt xəbərdarlıq edildi". Y. Oğuz söyləyib ki, iclasda vaxtilə qaçqın və məcbur köçkünlərin evlə təmin olunması məsələsində yol verilən nöqsanlar haqqında da məlumat verilərək bunların aradan qaldırılması istiqamətində tapşırıqlar verildi: "Azərbaycan prezidentinin bu cür məsələlərin həllinə önəm verməsi, bir daha göstərir ki, ölkəmizdə sosial yönümlü problemlərin həlli ən qabaqcıl vəzifələrdəndir. Ölkə başçısı bilir ki, sosial problemlər insanları yora bilər. İnsanlar narazılıqlarını sosial şəbəkələr vasitəsilə də bildirə bilirlər. Ölkə başçısı da bəzi sahələrdə mövcud olan problemlərin həllinə dair qəti fikrini bildirərək bu istiqamətdə mühüm tapşırıqlar verdi".

Ölkəmizdə bütün sahələrlə yanaşı, sosial sahəyə ayrılan yüksək diqqətdən söz açan baş redaktor qeyd edib ki, Azərbaycan vətəndaşlarının işini asanlaşdıran "Asan xidmət" kimi mərkəzlərin sayı artırılmalıdır: " Ölkə başçısı da hər zaman bu sahələrə önəm verərək, vətəndaşlarımızın rastlaşdığı süründürməçilik hallarının qarşısının alınması istiqamətində mühüm addımlar atılır. Bundan başqa "Asan xidmət" kimi mərkəzləri rüşvət və korrupsiya hallarının kökünün kəsilməsi istiqamətində mühüm əhəmiyyətə malikdir. Ölkəmizdə digər xidmət sahələrinin bu cür fəaliyyət göstərməsinə ehtiyac var. Artıq bu istiqamətdə addımlar atılır. Vaxtilə insanlarımız müəyyən problemlərini həll etmək üçün zaman-zaman növbədə dayanır, müxtəlif maneələrlə rastlaşırdılar. Bu gün vətəndaşlarımız "Asan xidmət" mərkəzləri vasitəsilə bu çətinliklərdən qurtulublar".

*Nailə Məhərrəmova*

# Şəhəri zibilləməklə "təmizkarlıq" nümayişi



***Nədənsə ekoloji təmizlik bəzi insanları narahat edir. Belə olmasaydı, bəzi insanlar zibili eyvandan həyətə, yaxud küçəyə atmaz, qapısının kənarına qoymaz və oturduğu yeri zibilləməzdilər. Etdikləri əməllərin fərqinə varmayan bəzi insanlar düşünmür ki, ətraf mühitin çirkləndirilməsi həm sağlamlıq üçün təhlükəli, həm qanun pozuntusu, həm də gündən-günə inkişaf edib, gözəlləşən ölkəmizin imicinə mənfi təsir edən amillərdən biridir. Təəssüfedici məqam odur ki, ayrı-ayrılıqda hər birimiz bunun düzgün hərəkət olmadığını bilsək də, əməllərimiz tam tərsini göstərir. Hər gün küçədə yerə tüpürən, siqaret kötükləri atan şəxsləri görəndə, avtobus dayanacaqlarında boş butulkalar, siqaret qutuları, çeynənib atılmış saqqız və digər zibil tullantıları rastımıza çıxanda artıq təəccüblənmirik. Bəs çoxmilyonlu şəhərimizdə qarşılaşdığımız bu cür halların - natəmizliyin qarşısını necə almaq olar, onu yaradanlara qarşı hansı tədbirlər görülməlidir, yaxud ekoloji maarifləndirmə effektiv üsul sayıla bilərmi? Bu barədə növbəti araşdırmamızda...***

## "01-15 sentyabr tarixlərində ekoloji qanunvericiliyin pozulması ilə bağlı 221 akt tərtib olunub"

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, 01-15 sentyabr 2018-ci il tarixlərində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühitin Mühafizəsi Departamentinin əməkdaşları tərəfindən ölkə ərazisində ekoloji qanunvericiliyin tələblərinə riayət olunmasını dair aparılan yoxlama nəticəsində hüquqi və fiziki şəxslər



tərəfindən atmosfer havasının, su və torpaq ehtiyatlarının, yerin təkinin, fauna və floranın mühafizəsi, ətraf mühitə qanunsuz məişət və istehsalat tullantılarının yerləşdirilməsi sahəsində yol verilmiş qanun pozuntularına görə 221 akt və protokol tərtib olunub: "Nöqsanların aradan qaldırılması üçün icrası məcburi olan 58 müddətli "məcburi göstəriş" verilib. Ümumilikdə, 53 iş üzrə 32600 manat məbləğində inzibati qaydada cərimə tətbiq edilib, ətraf mühitə dəymiş ziyana görə 33 iş üzrə 39843,48 manat məbləğində iddia qaldırılıb, ətraf mühitə tullantıların atılmasına və axıdılmasına görə hüquqi və fiziki şəxslərə qarşı 104 iş üzrə 29511,71 manat məbləğində ödəmə tətbiq edilib. Tədbir görülməsi üçün hüquq-mühafizə orqanlarına 38, icra qurumlarına 30, məhkəmələrə isə 4 iş göndərilib".

Nazirlik tərəfindən verilən açıqlamada bildirilir ki, qurum bu sahədə mütəmadi olaraq monitorinqlər həyata keçirir: "Nazirliyin bütün rayonlarda monitorinq və təbliğat qrupları fəaliyyət göstərir. Bununla yanaşı, ərazi ekologiya şöbələri də ətraf mühitin çirkləndirilməsi ilə bağlı məsələlərlə məşğul olur. Reydlər keçirilir, qanun pozuntuları aşkar edilir. Torpaq sahələrinin korlanması, yeraltı hövzələrinin və atmosferin çirklənməsi, yerin təkindən qanunsuz istifadə, qanunsuz ov etmə və s. bu kimi hallara qarşı tədbirlər gö-



rülür. Bu kimi hallar aşkarlanarsa, sənədləşdirilir və tədbirlər görülür".

## "Paytaxt Bakıda insanların təmizlik məsələlərinə ciddi fikir verməsinə böyük ehtiyac var"

Sosioloq Əhməd Qəşəmoğlu bildirib ki, ölkəmizdə xüsusilə də paytaxt Bakıda insanların təmizlik məsələlərinə ciddi fikir verməsinə böyük ehtiyac var: "İlk növbədə əhalinin özünün təmiz şəraitdə yaşaması onlar üçün rahatlıq, səliqəlilik, gözəllik yaradır. Digər tərəfdən bu, ölkəmizin imici baxımından mühüm əhəmiyyət kəsb edir. Ölkəmizə gələn turist çoxluğunu nəzərə alsaq, bu baxımdan da təmiz və səliqəli olmaq vacibdir. Çünki, ölkəmizin təmiz və səliqəli olması turistlərin ölkəyə baxışında həddsiz dərəcədə mühüm rol oynayır. Mən də başqa ölkələrə səfərlər edirəm, zir-zibil görəndə həmin şəhər dərhal gözümdən düşür. Həmin şəhərin başqa yaxşı cəhətlərini bilsəm belə, küçədəki natəmizlik, səliqəsizlik ölkə haqqında fikirlərimə təsir edir. Ona görə də biz bu məsələyə kifayət qədər ciddi baxmalıyıq".

## "Təmizlik təkcə yerə zibil atmamaqla deyil"

Sosioloq söyləyib ki, təmizlik təkcə yerə zibil atmamaqla deyil, bura natəmiz hərəkətlər də daxildir: "Parklar, küçələr təmiz olub, natəmiz hərəkətə yol verməyin özü də mənfi təəssüratlar yaradır. Bu cür halların qarşısının alınması üçün çox yaxşı nümunə Naxçıvan Muxtar Respublikasında var. Başqa ölkələrə isə nəzər yetirdikdə isə, bu məsələlərə Norveçdə həssaslıqla yanaşılır. Belə ki, orada insanlar ətraf mühitin çirkləndirilməsinə diqqətlə yanaşır və yerə düşən zibili götürüb zibil qutusuna atır. Başqa Avropa ölkələrində də belə nümunələri görmək mümkündür".

## "Problemi aradan qaldırmaq üçün ciddi fəaliyyət proqramı olmalıdır"

Ə.Qəşəmoğlu qeyd edib ki, ölkəmizdə şəhəri zibilləyənlərə qarşı mübarizədə təkcə maarifləndirmə və inzibati metodlar yetərli deyil: "Bu sahədə nəticə əldə etmək üçün kompleks metodların həyata keçirilməsi zəruridir. Maarifləndirmə və inzibati cəzalar həyata keçiriləcək işin bir tərəfidir. Bura sistemli yanaşma metodu mütləqdir. Çünki, cəmiyyətimiz gündən-günə mürəkkəbləşir. Belə olan halda, birtərəfli uğur əldə etmək olmaz. Mütəxəssislərin iştirakı ilə ciddi fəaliyyət proqramı olmalıdır. Bu fəaliyyət proqramında gənclərimizin ictimai yerlərdə təmizliklə bağlı davranışlarındakı problemlərin aradan götürülməsi üçün televiziyaların, sosial şəbəkələrin üzərinə düşəcək işlər, qanunvericilikdə dəyişiklər, inzibati metodlarla bağlı həyata keçiriləcək tədbirlər öz əksini tapacaq ki, bu, problemin qarşısını alınmasında böyük rol oynayacaq. Bəzən kiməsə yeri zibilləməməklə bağlı irad bildirəndə "biz müsəlmanıq düzəlmərik" kimi cavablar eşidirik. Bu, qəbul edilməzdir. Müsəlmanlarla bağlı belə fikir yaratmaq olmaz. Bu ictimai fikir təcili şəkildə dəyişilməlidir. Bu baxımdan hesab edirəm ki, ciddi fəaliyyət planına böyük ehtiyac var. Sadə mühitdə məsələni həll etmək daha asandır. Xüsusilə də Bakıda məsələ daha mürəkkəb olduğundan burada birtərəfli metodlar nəticə verə bilməz. İnsanlar bilməlidir ki, onların bir-birinə üstünlüyü məhz mədəni davranışlarından keçir, natəmiz hərəkətləri və kobud davranışları ilə deyil".

## "Natəmizlik insanlarda bir vərdişdir"



Psixoloq Leyla Qasımova bildirib ki, natəmizlik insanlarda bir vərdişdir: "Onlar etdikləri hərəkətin fərqinə varmadıqları üçün hər zaman bu hərəkətləri təkrar edirlər. Belə insanlar üçün şəhəri zibilləmək və ya natəmizlik etmək səhər yuxudan durub çay içmək kimi normal haldır. İnsanların bu vərdişləri tərgitməsi üçün onlar ilk növbədə etdikləri hərəkətin fərqinə varmalıdırlar. Bir çox insanlar bilməklə fərqin olmağı düzgün ayırd etmirlər. Hər kəs bilir ki, çox şəkər ziyandır amma bunu tərgitmək istəmir. Problem də məsələnin fərqinə varmaqdadır. Nəyisə tərgitmək üçün ilk növbədə bunu bilmək, fərqində olmaq, üçüncü mərhələdə isə vərdişi tərgitmək lazımdır. Vərdiş 3 ay ərzində formalaşır və bu müddət ərzində də tərgidilir".

## "Uşaqlar evdə gördüklərini təkrar edirlər"

L.Qasımova söyləyib ki, uşaqların natəmizliklə bağlı vərdişləri isə böyüklərdən gəlir: "Çünki, onlar ətrafda nə görürsə, onu da öyrənir. Əgər böyüklər bu cür vərdişləri tərgitsə, uşaqlar da tez zamanda bu vərdişlərdən imtina edə bilərlər. Uşaqlara sözlə deyil, hərəkətlə başa salmaq lazımdır. İnsanların şəhərin təmizliyinə ciddi fikir verməleri üçün maarifləndirmə tədbirləri yalnız 70-80 faiz effekt verə bilər. Misal üçün əgər uşağa məktəbdə bu hərəkətlərin düzgün olmaması ilə bağlı təlim keçirilir və həmin uşaq evə gedib əksini görürsə, o zaman bu təlimin heç bir əhəmiyyəti olmur. Bəzən insanlar "evimi təmizləmişəm çöldən mənə nə" kimi ifadələr səsləndirirlər. Amma belə deyil, onlar natəmizliyin səbəb olduğu xəstəliklər, fəsadlar haqqında öyrənməli və bu vərdişlərindən əl çəkməlidirlər".

## Bəs qanunvericilik nə deyir?

Məsələnin hüquqi tərəfləri haqqında məlumat verən hüquqşünas Səməd Vəkilov bildirib ki, bu məsələlər İnzibati Xətalar Məcəlləsinin 271-ci ("sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi") maddəsi ilə tənzimlənir: "Bu maddəyə görə, sənaye və məişət tullantılarının qalaqlanması qaydalarının pozulmasına, göstərilən tullantıları yandırarkən ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsinə görə fiziki şəxslər 500 manatdan 800 manatadək məbləğdə, vəzifəli şəxslər 2000 manatdan 3000 manatadək məbləğdə, hüquqi şəxslər 6500 manatdan 8000 manatadək məbləğdə cərimə edilir".

## "Zibil atmaqla başqasına xəsarət yetirməyə görə 7 il həbs cəzası nəzərdə tutulur"



Hüquqşünas qeyd edib ki, vətəndaşlar zibil tullantısı zamanı xəsarət aldıqları zamanı polisə şikayət edə bilərlər: "Misal üçün əgər kimsə öz eyvanından atdığı zibillə başqasının bədəninə xəta yetirmiş olursa, bunun üçün qanunvericilikdə ehtiyatsızlıqdan törədilən inzibati xəta ilə bağlı məsuliyyət nəzərdə tutulur. Həmin şəxs polisə müraciət edib ona xəsarət yetirən şəxslə bağlı şikayət edə bilər və həmin şəxslər az ağır cinayət məsuliyyətinə görə, 2-7 il müddətinə azadlıqdan məhrum edilə bilərlər".

***Nailə Məhərrəmova***

# Berlindən Yerevana dəyən “sillə”...

***Məlum olduğu kimi, Almaniyadan Qarabağ məsələsində Ermənistana növbəti zərbə vurulub. Almaniya Bundestaqının sağçı radikal AFD fraksiyasının AFR hökumətinə “Almaniya-Ermənistan münasibətləri” mövzusunda göndərdiyi sorğu və aldığı cavab diqqətçəkiciliyi ilə seçilib. Almaniya mediası sorğuda, həmçinin, Dağlıq Qarabağla bağlı bəzi sualların yer aldığını yazıb.***



*“AFR hökuməti Ermənistan silahlı qüvvələrinin nəzarətində yerləşən Dağlıq Qarabağ regionu və yeddi ətraf rayonu Azərbaycanın bir hissəsi hesab edir. AFR hökuməti qondarma “Dağlıq Qarabağ Respublikasını” tanımır”*

Almaniya hökumətinin sözügedən sorğuya cavabının girişində xüsusi qeyd olunub: “AFR hökuməti xüsusi olaraq, vurğulayır ki, “Almaniya-Ermənistan münasibətləri” anlayışı ilə AFR və Ermənistan Respublikası arasındakı münasibətlər başa düşülməlidir”. Cavabda, konkret olaraq bildirilib ki, “AFR hökuməti Ermənistan silahlı qüvvələrinin nəzarətində olan Dağlıq Qarabağ regionu və yeddi ətraf rayonu Azərbaycanın bir hissəsi hesab edir. AFR hökuməti qondarma “Dağlıq Qarabağ Respublikasını” tanımır”. Hökumət sorğunun müvafiq bəndlərinə (Dağlıq Qarabağda insan hüquqlarının, mətbuat azadlığının, azlıqların vəziyyəti, orada yaşayan almanların sayı və s.) dair cavabında bu qeydinə istinad etməklə kifayətlənib. Həmçinin, sorğudakı “AFR hökuməti Dağlıq Qarabağın beynəlxalq hüquqi statusunu necə qiymətləndirir” sualına hökumət “Dağlıq Qarabağ bölgəsi Azərbaycan Respublikasının ərazisinin bir hissəsidir” cavabını verib.

Baş verənlərin fonunda, əminliklə demək olar ki, Dağlıq Qarabağ məsələsində Almaniya kifayət qədər ədalətli mövqe sərgiləyir. Çünki Almaniya parlament səviyyəsində Dağlıq Qarabağ münaqişəsinə hüquqi-siyasi qiymət verən və Ermənistanın təcavüzkarlığını pisləyən Qərb ölkələrindən biridir. Bütün bunlar, bir daha təsdiq edir ki, Almanyia Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Ermənistanı işğalçı ölkə olaraq qəbul edir. Təbii ki, bu da Azərbaycanın xarici siyasətinin növbəti uğuru kimi qəbul olunur.

Bir müddət əvvəl, Almaniyanın Federal Kansleri xanım Angela Merkelin, ölkəmizə səfəri fonunda da, özünü qabarıq büruzə verdi. Həmin səfər zamanı Merkelin Prezident İlham Əliyevlə apardığı müzakirələr, iş adamları ilə görüş, səsləndirilən fikir və bəyanatlar Azərbaycan-Almaniya münasibətlərinin daha da möhkəmləndirilməsinə yeni töhfə verdi. Azərbaycan ilə Almaniya arasında kifayət qədər yaxın əlaqələrin mövcudluğu bir daha təsdiqini tapdı. Azərbaycan üçün burada önəmli məqamlardan biri, həm də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Almaniyanın sərgilədiyi mövqedir.

Xatırladaq ki, bu məsələ Merkelin ölkəmizə səfəri zamanı da xüsusi diqqət mərkəzində olub. Xanım Merkel ölkəmizdə olarkən, Dağlıq Qarabağ məsələsi ilə bağlı bildirib: “Biz Dağlıq Qarabağ məsələsi ilə bağlı Minsk Qrupunda fəaliyyətimizi davam etdirəcəyik. Məndə səfərimlə bağlı məsələnin təcili və necə həll olunması barədə bir daha aydın təsəvvür yarandı. Biz səylərimizi artıracağıq və bütün tərəflər də iştirak etməlidir ki, bir həll yolu tapılsın və biz buna töhfəmizi verəcəyik”.

Bir məqamı da, əlavə edək ki, Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bununla bağlı Prezident İlham Əliyev bildirib: “Münaqişə ilə bağlı danışıqların indiki mərhələsi ictimaiyyət üçün bəllidir. Ermənistan tərəfinin cəhdləri nəticə vermədi, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı danışıqların formatı dəyişməz olaraq qalır. Bu danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb, aparılır və aparılmalıdır. İki ölkənin xarici işlər nazirlərinin iki görüşü bunu bir daha sübut edir. Son vaxtlar baş vermiş digər hadisələr, onu göstərir ki, danışıqların formatı dəyişməz olaraq qalır və bu münaqişə tezliklə beynəlxalq hüquq norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt olmayacaq. Ona görə, biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi öz siyasətində konstruktivlik nümayiş etdirəcək və torpaqlarımız tezliklə işğalçılardan azad olunacaqdır”.

***“Səs” Analitik Qrupu***

# XİN rəsmisi: “Status-kvo qəbuledilməzdir və dayanıqlı deyil”

***“Almaniya Federativ Respublikasının (AFR) hökumətinin Almaniya Bundestaqından ona ünvanlanan suala cavabında AFR hökumətinin Ermənistan silahlı qüvvələrinin nəzarətində yerləşən Dağlıq Qarabağ regionu və yeddi ətraf rayonu Azərbaycanın tərkib hissəsi hesab edir və AFR hökuməti qondarma “Dağlıq Qarabağ Respublikasını” tanımır”. Bunu SİA-ya açıqlamasında Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri Leyla Abdullayeva deyib.***



Onun sözlərinə görə, Almaniya Federal Kansleri Angela Merkel ölkəmizə səfəri çərçivəsində eyni mövqeyi səsləndirərək Ermənistan-Azərbaycan münaqişəsinin BMT-nin Təhlükəsizlik Şurasının qərarları əsasında həlli səylərini dəstəklədiklərini vurğulayıb: “Həmçinin ABŞ dövlət katibinin köməkçisinin müavini Corc Kent Bakıya səfəri zamanı ABŞ-ın münaqişənin həlli ilə bağlı mövqeyini bir daha təkrar edərək, bu xüsusda münaqişənin BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsi əsasında həllinin dəstəkləndiyini bəyan etdi. Hər iki bəyanat, beynəlxalq ictimaiyyətin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin sonuncu iclasında səsləndirdiyi kimi münaqişənin beynəlxalq hüquq norma və prinsipləri və Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllini dəstəklədiyini bir daha təsdiq edir. Beynəlxalq ictimaiyyətin bu sonuncu aydın mövqeyi Ermənistan rəhbərliyinə münaqişənin ən qısa zamanda dinc yolla həlli və işğal edilmiş Azərbaycan torpaqlarından silahlı qüvvələrin tez bir zamanda çıxarılmasına dair nəticələrə yönəlik danışıqlara geri dönmək və substantiv müzakirələrə başlamaqla bağlı güclü çağırışdır. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin də dəfələrlə bəyan etdikləri kimi status-kvo qəbul edilməzdir və dayanıqlı deyil”.

# Sabunçu rayonunda Dövlət Müstəqilliyi Günü qeyd olundu

***Dünən Sabunçu rayon icra hakimiyyətinin, YAP Sabunçu rayon təşkilatının və rayon gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə Sabunçu rayon 74 nömrəli tam orta məktəbdə 18 Oktyabr Dövlət Müstəqilliyi Günü münasibətilə tədbir keçirilib.***





Tədbiri giriş sözü ilə açan YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva bildirdi ki, 27 il əvvəl, Azərbaycan Respublikası Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi: “Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Müstəqilliyinin ilk illərində ölkəmiz xeyli çətinliklərlə üzləşdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı və Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı”.

M.Abasquliyeva Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi milli inkişaf strategiyasını Prezident İlham Əliyevin uğurla davam etdirməsi nəticəsində, Azərbaycanın hərtərəfli tərəqqi və inkişaf yolunda olduğunu bildirdi. Hazırda bütün dünyanın diqqəti inkişafın Azərbaycan modelinə yönəlib. Azərbaycan regionun lider dövləti və aparıcı qüvvəsidir.

Tədbirdə rayon icra hakimiyyətinin başçısının müavini Rəna Fərəcova çıxış edərək, Azərbaycanın hər cür çətinliyə - 70 illik zülm və əsarətə baxmayaraq, 1991-ci ilin oktyabr ayının 18-də müstəqilliyini yenidən bərpa etdiyini, özünün suverən dövlətini yaratdığını bildirdi: “Vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və Onun əbədiliyi təmin edilir. Bütün bunlar, bir daha deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədi və dönməzdir. Bu, müasir Azərbaycan insanının xoşbəxtliyidir. Dövlət başçısı İlham Əliyevin dediyi kimi: “Bizim nəslimizin ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz müstəqil dövlətdə yaşayırıq. Bizdən əvvəlki nəsillər də bu arzularla yaşamışlar. Ancaq bu arzulara çata bilməmişlər. Bizim xoşbəxtliyimiz ondadır ki, müstəqil və azad dövlətdə Azərbaycan Respublikasının vətəndaşı kimi yaşayırıq”.

Millət vəkili Dilarə Cəbrayılova tədbirdə çıxış edərək, Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi islahatlardan, müstəqil Azərbaycanın qısa bir zamanda əldə etdiyi nailiyyətlərdən söz açaraq, Onun siyasi kursunun müasir dövrümüzdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırdı.

Sabunçu rayon gənclər və idman idarəsinin rəisi Rakif Əliyev, son 15 il ərzində, Azərbaycanın Ulu Öndər Heydər Əliyevin siyasətinə sadiq qalaraq, uğurla və inamla inkişaf etdiyini vurğuladı: “Bu gün Azərbaycan güclü ölkəyə çevrilibdir. İstənilən sahədə əldə olunan uğurlar bunu deməyə əsas verir. İstər ölkə daxilidə, istərsə də beynəlxalq miqyasda əldə olunan nailiyyətlər və qazanılan nüfuz ölkə gerçəkliklərinə söykənir”.

Tədbirin sonunda məktəblər arasında keçirilən idman yarışında qaliblər medal və Fəxri Fərmanlarla təltif olunublar.

***RƏFİQƏ KAMALQIZI***




# İcbari tibbi sığortanın tətbiqi insanların sağlamlığına yönəldilib

***Azərbaycanda səhiyyə sisteminin yenidən qurulması, əhalinin sağlamlığının daha yaxşı təşkili, bu sahədə yeni texnologiyaların tətbiqi və yeni kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları tibbi xidmətin səviyyəsini yüksəldib. Müasir dövrümüzdə ölkəmizdə icbari tibbi sığortanın tətbiqi səhiyyə sahəsində aparılan islahatların davamı və tərkib hissəsidir. Müasir və keyfiyyətli tibbi xidməti təmin edən səhiyyənin maliyyələşdirilməsinin yeni forması olan icbari tibbi sığorta vətəndaşların tibbi xidmətlərə əlçatarlığını təmin edəcək.***

## ARAZ NƏSİROV: "XƏSTƏLİKLƏRİN ƏVVƏLCƏDƏN AŞKAR EDİLMƏSİ ÜÇÜN İLKİN SƏHİYYƏ XİDMƏTİ TƏKMİLLƏŞDİRİLƏCƏK, AİLƏ HƏKİMİ İNSTİTUTU İNKİŞAF EDƏCƏK"

Hazırda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi beynəlxalq ekspertlərlə birgə icbari tibbi sığortanın ölkə üzrə tətbiqi, mövcud vəziyyətinin təhlili və gələcək perspektivləri üzərində intensiv işlər aparır. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin monitorinq, təhlil və aktları departamentinin rəhbəri Araz Nəsirovun "Səs" qəzetinə verdiyi açıqlamasında təhlillərin yekununda icbari tibbi sığortanın ölkə üzrə tətbiqi mexanizminin detallarının müəyyən olacağını söylədi. Onun sözlərinə görə, ümumilikdə, 2019-cu ildən icbari tibbi sığortanın ölkə üzrə mərhələli şəkildə tətbiqinə başlanılması nəzərdə tutulur. "Azərbaycanda icbari tibbi sığoratanın tətbiqi bir sıra məsələlərin həllinə səbəb olacaq" deyən A.Nəsirov, başlıca olaraq, onun tətbiqi nəticəsində sığorta olunanların sağlamlıqları ilə əlaqədar maliyyə yükünün azalacağını bildirdi: "Eləcə də, xəstəliklərin əvvəlcədən aşkar edilməsi üçün ilkin səhiyyə xidməti təkmilləşdiriləcək, o cümlədən, ailə həkimi institutu inkişaf edəcək. Sistem, elə qurulacaq ki, xəstəliklərin erkən aşkarlanması və vətəndaşların vaxtında müalicəyə cəlb edilməsi mümkün olacaq. İcbari tibbi sığorta çərçivəsində, həmçinin, əhali üçün tibbi xidmətlərdən istifadə edilməsində bərabər şərtlər yaradılacaq, hamı üçün əlçatarlığı təmin ediləcək, tibbi xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılması istiqamətində tədbirlər görüləcək".

## İCBARİ TİBBİ SIĞORTADAN XARİCİ VƏTƏNDAŞLARIN YARARLANMASI YERLİ VƏ BEYNƏLXALQ QANUNVERİCİLİYƏ, DÖVLƏTLƏRARASI RAZILAŞMALARA ƏSASƏN TƏNZİMLƏNƏCƏK

İşləməyən şəxslərin bundan necə yararlanacağına gəlincə isə, A.Nəsirov bütün əhali qrupları üçün icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərin əldə olunması üçün bərabər imkanların yaradılmasının nəzərdə tutulduğunu qeyd etdi: "Əmək qabiliyyətli olub işləməyən və qeyri-rəsmi işləyən şəxslər sığorta haqqını fərdi qaydada ödəməlidirlər. Əks halda, onlar xəstəxanalarda tibbi xidmətlərdən ödənişli qaydada istifadə etməli olacaqlar".

Departamentin rəhbəri icbari tibbi sığortadan xarici vətəndaşların yararlanmasının yerli və beynəlxalq qanunvericiliyə, dövlətlərarası razılaşmalara əsasən, tənzimlənəcəyini vurğuladı.

## İCBARİ TİBBİ SIĞORTA HAQQININ MƏBLƏĞİ MÜƏYYƏNLƏŞİB

Onun sözlərinə görə, bu gün pilot layihələri tətbiq olunan rayonlarda 370 min nəfərdən çox qeydiyyatda olan əhali və məcburi köçkün icbari tibbi sığortanın 1829 adda tibbi xidməti əhatə edən baza zərfindən ödənişsiz istifadə etdiklərini bildirdi: "Hazırda maliyyələşmə mexanizmləri və tariflərlə bağlı müzakirələr aparılır. İcbari tibbi sığorta haqqı üçün muzdlu işçilərin əmək haqlarından faiz tutulması, digər vətəndaşlar tərəfindən isə illik 120 manat ödənilməsi təklif olunur. İqtisadi qeyri-fəal əhalinin xərclərinin dövlət büdcəsi tərəfindən qarşılanması gözlənilir. Qeyd olunan hesablama pilot ərazilərdə icbari tibbi sığortanın tətbiqi dövründə maliyyə nəticələrinə əsasən hesablanmışdır".

## MUSA QULİYEV: "GƏLƏCƏKDƏ İCBARİ TİBBİ SIĞORTA MƏRHƏLƏLİ ŞƏKİLDƏ BÜTÜN ÖLKƏ ÜZRƏ TƏTBİQ EDİLƏCƏK"

Millət vəkili Musa Quliyev "Səs" qəzetinə açıqlamasında bildirib ki, bu layihə əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığortanı təmin edəcəkdir. Müasir dünyada səhiyyə icbari tibbi sığorta əsasında maliyyələşir. Artıq ölkəmizdə icbari tibbi sığorta ilə bağlı pilot layihələrin həyata keçirildiyini bildirən M.Quliyev - Mingəçevir şəhəri, Yevlax və Ağdaş kimi rayonlarında həyata keçirildiyini vurğuladı. İcbari tibbi sığortanı baza zərfinə daxil olan tibbi xidmətə gəlincə isə, bildirib ki, bura 1829 adda tibbi xidmək daxildir. Bunlardan 480-i ambulator, 677-si stasionar, 18-i ilkin səhiyyə, 6 növ təcili və təxirəsalınmaz tibbi yardım olduğunu diqqətə çatdırıb. Baza zərfi, həmçinin, 459 adda laborator müayinəyə və 166 adda həyati vacib, dəyəri yüksək xidmətlərə də təminat verir.



Baza zərfinə daxil edilən həyati vacib, dəyəri yüksək tibbi xidmətlər müəyyənləşdirilərkən, ölüm səbəbləri arasında öndə gedən xəstəliklər nəzərə alınıb. Belə ki, qapalı və açıq ürək əməliyyatları, o cümlədən, stend qoyulması, damar əməliyyatları sığorta paketinə daxil edilib, çünki ürək-damar xəstəlikləri ölüm səbəbləri arasında yüksək yer tutur.

## NAĞDƏLİ ZAMANOV: "İCBARİ TİBBİ SIĞORTA VƏTƏNDAŞ-DÖVLƏT BİRLİYİNİ DAHA DA MÖHKƏMLƏNDİRƏCƏK"



Azərbaycan Tibb Universitetinin daxili xəstəliklər kafedrasının doseti Nağdəli Zamanov icbari tibbi sığortanın tətbiqinin əhəmiyyətinə toxunaraq, ilk növbədə, Azərbaycan vətəndaşına dövlət tərəfindən göstərilən növbəti diqqət və qayğı olduğunu bildirdi. Bunu sivil və demokratik cəmiyyətin növbəti uğuru kimi dəyərləndirərək, qeyd etdi ki, dövlət tərəfindən atılan bu addım vətəndaş-dövlət birliyini daha da möhkəmləndirəcəkdir.

İcbari tibbi sığortanın əhalinin sağlamlığının həllində mühüm rol oynayacağını bildirərək, xəstəliklərin vaxtında müayinə olunmasına imkan verəcəyini diqqət çatdırdı. Eyni zamanda, vətəndaşların səhiyyə xərclərinin azalması səbəbindən, pullarına qənaət etməsinə və az təminatlı və ya işsiz statusu olan insanların səhiyyə xidmətindən yararlanmasına imkan yaradacağını söylədi: "Bu, çox ciddi və önəmli məsələdir. Dünyanın bir çox ölkələrində, artıq icbari tibbi sığorta tətbiq olunub. Dövlət tərəfindən ayrılan vəsaitlər hesabına ölkəmizdə də vətəndaşlara daha yüksək səhiyyə xidmətlər göstəriləcək".

Göründüyü kimi, həyata keçirilən tədbirlər vətəndaş firavanlığına, sosial rifah halının yaxşılaşmasına istiqamətlənib. Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən əhalin sağlamlığının və rifah halının yüksədilməsi ilə bağlı imzaladığı fərman və sərəncamlar bu sahədə tədbirlərin gücləndirilməsinə, yeni addımların atılmasına geniş imkanlar atır. Azərbaycanda səhiyyə sisteminin yenidən qurulması, əhalinin sağlamlığının daha yaxşı təşkili, bu sahədə yeni texnologiyaların tətbiqi və yeni kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları tibbi xidmətin səviyyəsini yüksəldib.

***Nəzakət ƏLƏDDİNQIZI***

ARAŞDIRMA

# "Son 3 ay ərzində ağac kəsintisi nəzərəçarpacaq dərəcədə azalıb"

"Bu ilin son 6 ayı ərzində Bakı şəhəri ərazisində 61 ağacın icazəsiz kəsildiyi, 98 ağacın isə zədələndiyi aşkar edilib. Bununla bağlı 59 təqsirkar şəxsə71800 manat məbləğində cərimə, 23745 manat məbləğində ziyan tətbiq olunub. 40 fakt üzrə təqsirkarların tapılması və qanunamüvafiq tədbir görülməsi üçün polis orqanlarına müraciət edilib". SİA-nın verdiyi məlumata görə, bunu Ekologiya və Təbii Sərvətlər Nazirinin müavini Firdovsi Əliyev dünən keçirilən mətbuat konfransında deyib.

Nazir müavini müqayisə üçün bildirib ki, son 3 ay ərzində isə 12 ağacın kəsildiyi, 14 ağacın zədələndiyi müəyyən edilib. Rəqəmlər də bunu deməyə əsas verir ki, son 3 ayda ağac kəsintisi nəzərəçarpacaq dərəcədə azalıb: "Aparılan təhlillər göstərir ki, Nazirliyin "qaynar xətt"inə ağacların kəsilməsi ilə bağlı daxil olan şikayətlərin sayında da əhəmiyyətli dərəcədə azalma var. May ayında ağac kəsintisi üzrə 30 şikayət daxil olduğu halda, sentyabr ayında bu rəqəm azalaraq 15 olub. Vətəndaşlar tərəfindən kəsilmə təhlükəsi olan ağaclar barədə verilən məlumatlar əsasında isə 30-a yaxın ağacın kəsilməsinin qarşısı alınıb. Yaşıllıqların mühafizəsində göstərdikləri vətəndaşlıq mövqeyinə, Nazirliyin fəaliyyətinə dəstək verdiklərinə görə bu şəxslərə Nazirlik tərəfindən təşəkkür bildirilib. Görülən tədbirlərə, aparılan maarifləndirmə işlərinə baxmayaraq hələ də ağac kəsintisi tamamilə aradan qalxmayıb. Ölkə başçısının da Nazirlər kabinetinin iclasında qeyd etdiyi kimi, ağacların kəsilməsi halları xeyli azalıb, amma tam aradan qaldırılmayıb. Nazirlik tərəfindən bundan sonra da ağac kəsənlərə qarşı sərt tədbirlər görüləcək, ölkə başçısının verdiyi tapşırıqlara uyğun olaraq ağac kəsintisi hallarının tam aradan qaldırılması üçün qəti addımlar atılacaq".



# "Bu il Bakıya əlavə 300 yeni müasir avtobus gətiriləcək"



Bu il Bakıya əlavə 300 yeni müasir avtobus gətiriləcək. AZƏRTAC xəbər verir ki, bu məlumatı Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında söyləyib. Prezident deyib: "Şəhər nəqliyyatı sahəsində də irəliləyiş var. Biz şəhər nəqliyyatının təkmilləşdirilməsi işində islahatlar aparırıq, həm yol-nəqliyyat hərəkətinin tənzimlənməsi, eyni zamanda, yeni yolların açılması, nəqliyyat vasitələrinin alınması istiqamətində. Bu il şəhərimizə əlavə 300 yeni müasir avtobus gətiriləcək. Mən göstəriş vermişəm, gələn il də, minimum 300, əgər maliyyə imkanımız olsa, 500 yeni avtobus gətirilməlidir. Dövlət bu sahədə öz liderliyini göstərməlidir".

# Respublikaçılar Serj Sarkisyana xəyanət etdilər

## *Bir rejimdən digər rejimə keçməklə...*



***Ermənistanda siyasi böhranın getdiyi bir vaxtda keçmiş sistemin - Serj Sarkisyan hakimiyyətinin bir sıra təmsilçiləri Respublika Partiyasının sıralarından qopmağa başlayıblar. Erməni mediası xəbər verir ki, artıq bir neçə nəfər respublikaçı deputat Nikol Paşinyanın dekabrda növbədənkənar parlament seçkilərinin keçirilməsi tələbini dəstəkləyiblər.***

### Alik Sarkisyan: **"Növbədənkənar seçkilər keçirilməlidirsə, demək, keçirilməlidir"**

Belə ki, parlamentdə səs çoxluğuna malik Respublika Partiyasından olan deputat, eyniadlı fraksiyanın təmsilçisi Alik Sarkisyan fraksiyadakı fəaliyyətinin de-fakto dayandırdığını bəyan edib. "Civilnet.am"-a bu barədə danışan deputat yaxın günlərdə fraksiya sıralarını tərk etməsi barədə rəsmi bəyanat verəcək. Onun qərarının növbədənkənar parlament seçkiləri ilə bağlı olub-olmaması ilə bağlı verdiyi suala cavabı da ilgincdir. "Mənim üçün fərqi yoxdur, mən demişəm ki, əgər növbədənkənar seçkilər keçirilməlidirsə, demək, keçirilməlidir və onun dekabrda, yanvarda, yaxud mayda keçirilməsi əhəmiyyət daşımır" erməni deputat deyib.

### Arman Saakyan: **"Mən də parlamentin buraxılmasının və dekabr ayında növbədənkənar seçkilərin keçirilməsinin tərəfdarıyam"**

Ermənistan parlamentinə Respublika Partiyasının siyahısı üzrə seçilmiş deputatı Arman Saakyan da bəyan edib ki, dekabrda növbədənkənar parlament seçkilərinin keçirilməsinə tərəfdir. O, bu haqda facebook səhifəsində yazıb. Erməni deputat ölkədə cidd böhranın baş alıb-getdiyini etiraf edərək, seçkilərin keçirilməyəcəyi halda, vəziyyətin daha da ağırlaşacağını bildirib. "Hörmətli soydaşlarımız, ölkədə böhranlı vəziyyəti nəzərə alaraq, bəyan edirəm ki, mən də parlamentin buraxılmasının və dekabr ayında növbədənkənar seçkilərin keçirilməsinin tərəfdarıyam" deyə yazan Armen Saakyana görə, o, ümidvar olduğunu deyib ki, Şirakdan olan seçicilərinin də onun qərarına dəstək verəcəyinə inanır.

Beləliklə, Saakyan hələ oktyabrın 3-də Respublika Partiyasının parlament fraksiyasını tərk etdiyini bəyan edərək, bundan sonra müstəqil deputat olaraq fəaliyyətini davam etdirəcəyini bildirib.

### Artur Gevorkyan: **"Birmənalı olaraq, baş nazir Nikol Paşinyanın mövqeyini dəstəkləyirəm"**

Serj Sarkisyana xəyanət edən daha bir deputat isə Artur Gevorkyandır. O da, öz facebook səhifəsində dekabr ayında parlamentə keçiriləcək növbədənkənar seçkilərin tərəfdarı olduğunu bildirib. "Mən, birmənalı olaraq, baş nazir Nikol Paşinyanın mövqeyini dəstəkləyirəm", yazan deputat Gevorkyan Paşinyanın istefasından sonra növbədənkənar seçkilərə qədər baş nazir seçkilərinin keçirilməməsin, eləcə də, mövcud parlamentin buraxılması tərəfdarı olduğunu bəyan edib. Buradan da, aydın görünür ki, Respublika Partiyasını təmsil edən deputat açıq-aşkar siyasi riyakarlığa yol verir və "quyruğunun" qapı arasında qalmasından" ehtiyat edir.

### Qagik Sarukyanla Arsen Ambarsumyan da Serj Sarkisyana "atış" gəldilər

Yeri gəlmişkən, yalnız parlamentdə hakim üstünlüyə malik olan Respublika Partiyası deyil, eyni zamanda, bu partiya ilə uzun illər müttəfiqlik etmiş digər siyasi təşkilatlar da, necə deyərlər, Serj Sarkisyanın arxasına zərbə endiriblər. Misal üçün, "Çiçəklənən Ermənistan" Partiyasının lideri Qagik Sarukyan, eləcə də, daşnakların lideri Arsen Ambarsumyan da Nikol Paşinyanla danışıqlara gedərək, onun tələblərinə dəstək göstərəcəklərini bildiriblər.

### Əslində isə, onları nə xalq, nə ölkə, nə də Paşinyan maraqlandırmır

Beləliklə, ermənilərin xəyanət, satqınlıq və əqidəsizlik sindromu bu xalqın öz daxilində də özünü göstərməkdədir - bu dəfə siyasi mənzərədə. Məsələ ondadır ki, bu kimi deputatlar uzun illər Serj Sarkisyanın hesabına xalqın qanını içərək, böyük oliqarxlara, sahibkarlara çevrilsələr də, indi "demokratiya uğrunda mübarizə" apardıqlarını sərgiləməyə başlayıblar. Halbuki dəyişiklik baş verərsə belə, sadəcə, rejim dəyişikliyi olacaq və Sarkisyandan imtina edilərək, Paşinyanın dəstəklənməsi, sadəcə, bu kimi deputatların xalqı və ölkəni talan etməklə topladıqları var-dövlətlərinin qorunmasına hesablanmış addımdır. Əslində isə, onları nə xalq, nə ölkə, nə də Paşinyan maraqlandırmır. Çox yəqin ki, zaman gələcək və bu gün Paşinyana dəstək göstərənlər, sabah digər küçə siyasətbazının ətrafına yığışaraq, Sarkisyana vurduqları zərbədən ona da dadızdıracaqlar. Çünki Ermənistanda dərin və çözülməsi mümkün görünməyən siyasi böhran, məhz buna doğru inkişaf etməkdədir.

***Rövşən Nurəddinoğlu***

## "Dünyada 600 milyon uşaq minimum təhsil ala bilmir"

"Dünyada 600 milyon uşaq minimum təhsil ala bilmir". SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, bu barədə YUNESKO-nun baş direktoru Odri Azuley açıqlayıb. O, qadın və qızların təhsil almasının vacibliyini qeyd edib: "Bu gün Beynəlxalq Qızlar günüdür və bu, çox aktual məsələdir". "Bugünkü və gələcək nəsillər demoqrafik və ekoloji radikalizm kimi çətinliklərə qarşı çıxmalıdırlar. BMT, YUNESKO onların çağırışlarına dəstək ola bilər", - deyə, O. Azuley bildirib.

# "Paşinyan öz xoşu ilə istefa vermir"

## Qabil Hüseynli: *"Koçaryan və Sarkisyan sosial dayaqlarını itiriblər"*

***- Qabil müəllim, işğalçı ölkənin baş naziri Paşinyan oktyabrın 16-da istefa verəcəyini bəyan edib. Sizcə, Paşinyan istefa verməklə hansısa siyasi maraqlarının həyata keçirilməsini planlaşdırırmı?***



**Müsahibimiz politoloq Qabil Hüseynlidir**

- Ermənistanın yeni konstitusiyasında seçkilər dövründə icra hakimiyyətinin başında duran adam istefa verməlidir. Burada Paşinyan öz xoşu ilə istefa vermir, yeni konstitusiyanın tələblərinə görə istefa verir. İstefaya getdiyi müddətdə onun yerinə yeni adam seçilə bilməz. Bir sözlə, onun səlahiyyətlərini isə, onun 1-ci müavini əvəz edir. Bu baxımdan, Paşinyanın istefaya getməsi konstitusiyanın tələbidir.

***- Hakimiyyətə iddialı olan Koçaryan və Sarkisyan Paşinyanı əvəz etmək üçün hərəkətə keçəcəklərini demək mümkündürmü?***

- Yox, Koçaryan və Sarkisyan sosial dayaqlarını itiriblər. Bu baxımdan, tamailə gücsüzdürlər. Artıq Respublika partiyası meydanda tək qalıb. Parlamentdə ikinci partiya olan Saakyanın "Çiçəklənən Ermənistan" Partiyasının 30 nəfər deputatı Paşinyanı müdafiə edir və seçkilərdə iştirak etməyəcəyini və baş nazirliyə namizəd göstərilməyəcəyini bildirib. Dünəndən isə "Daşnaksutyun" partiyası da Paşinyanla memorandum imzalayıb və necə hərəkət edəcəkləri barədə hər iki tərəf üzərlərinə öhdəlik kimi götürübdür. Ona görə də, Paşinyanın parlametdəki Respublika Partiyasından o qədər də çəkilmir. Üstəlik də, Respublika Partiyasından artıq iki nəfər istefa verərək, Paşinyanın "Bizim addımlar" blokuna qoşulubdur.

***- Tərəflərarası qarşıdurma Ermənistanda növbəti iğtişaşların və qarşıdurmaların yaranmasına gətirib çıxara bilərmi?***

- Qarşıdurma ehtimalları xeyli azalıbdır. Amma sadəcə olaraq, kənardan müəyyən təsirlər ola bilər. Məsələn, burada Rusiyanı nəzərdə tutub deyirəm. Ordunun içərisindən müəyyən qiyam xarakterli hərəkətləri də zəif ehtimalla qiymətləndirmək olar. Amma hər halda, seçkilər dövrü, yəni dekabrda seçkilər keçiriləcək və biz Ermənistanda etirazların güclənəcəyinin şahidləri olacağıq.

***GÜLYANƏ***

## İcma əsaslı təhsilə cəlb edilən uşaqların sayı 2 minə yaxın olub



Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasına uyğun olaraq təhsilin bütün pillələrində təhsilin inkişafı üçün işlər aparılır. Dörd il əvvəl məktəbəhazırlıq yaşına çatmış uşaqların təhsilə cəlbolunma səviyyəsi 25 faiz idisə, strategiyaya uyğun aparılan işlər nəticəsində ötən tədris ilində bu göstərici 65, bu tədris ilində isə 75 faiz olub. AZƏRTAC xəbər verir ki, bunu təhsil naziri Ceyhun Bayramov XII Azərbaycan beynəlxalq təhsil sərgisinin açılış mərasimində çıxışı zamanı deyib.

"Bu il 3-5 yaşlı uşaqlar üçün nəzərdə tutulan icma əsaslı təhsilə cəlb edilən uşaqların sayı 2 minə yaxın olub", - deyən nazir bu rəqəmi yüksəltməyin əsas hədəflərdən biri olduğunu diqqətə çatdırıb.

## Rusiyanın daha 3 universitetinin Azərbaycanda filialı açılacaq



Rusiyanın daha 3 universitetinin Azərbaycanda filialı açılacaq. AZƏRTAC xəbər verir ki, bunu Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov deyib. Diplomat qeyd edib ki, bu filiallar Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu, Ali İqtisadiyyat Məktəbi və Moskva Dövlət Humanitar-İqtisad Universitetinin olacaq. Hazırda Azərbaycanda Rusiyanın M.V.Lomonosov adına Moskva Dövlət Universiteti və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları fəaliyyət göstərir.

## Paşinyanın selfi şakəri: Bu dəfə robotla




Hələ də siyasi eyforiya şəraitindən çıxa bilməyən Ermənistanın baş naziri Nikol Paşinyanın xarici ölkələrə səfərləri zamanı dövlət rəhbərləri ilə selfi çəkdirmək şakəri bu dəfə robotla məhdudlaşıb. SİA armtoday-a istinadənxəbər verir ki, bu dəfə o arvadı Anna Akopyanla ölkəsində keçirilən frankofoniya sammiti çərçivəsində Ermənistana aparılmış Sofiya adlı robota selfi çəkdirmək təklifi edib. Görünür, etiraz edəcəyi halda erməni baş nazirin qiyam qaldıracağından ehtiyat edən robot Sofiya sonda bu təklifə razı olub. Fotolarda diqqət çəkən məqamlardan biri də Paşinyanla arvadının robotla tanışlıq zamanı siyasi çevrədə özlərini açıq-aşkar görməmiş və yüngül tərzində aparmaları olub.

***Rövşən RƏSULOV***

# Əli Kərimlini ifşa edən faktlar açıqlandı

***Son günlər dağıdıcı müxalifət düşərgəsində mühacirət "biznesi" ilə bağlı yaranan qarşılıqlı ittihamlar səngimək bilmir. Siyasi arenada hər hansı uğuru olmayan ideyası xatırlanmayan Azərbaycan Xalq Cəbhəsi Partiyası və onun rəhbəri Əli Kərimli pul müqabilində mühacirlər üçün saxta partiya vəsiqələri təşkil etməkdə ittiham obyektinə çevrilib.***



Sözügedən məsələ ilə bağlı AXCP sədrliyinə sabiq namizəd Sahib Kərimli Ə.Kərimli ilə bağlı ifşaedici faktlar açıqlayaraq AXCP-dəki mühacir biznesi, Qərbdən gələn qrantların Ə.Kərimli tərəfindən talandığını deyib: "Bu, o müxalifətdir ki, 25 ildir ki, durmadan siyasi məğlubiyyətə uğrayır. Bu gün Qərb də müxalifəti dəstəkləməkdən vaz keçib. Çünki müxalifətin cazibədarlığı, potensialı, səviyyəsi yoxdur. Müsavat, AXCP və "Milli Şura"da olanlar korrupsiyaya düçar olublar".

## Əli Kərimli siyasətə heç bir aidiyyəti olmayan şəxslərə arayışı pulla satır

S.Kərimli bu günlərdə yenidən Ə.Kərimlinin mühacirətə getmək istəyənlərin dəfələrlə partiyaya müraciətlər etdiyini, partiya bileti əldə etmək üçün xahişlər edildiyini etiraf edib. Hətta qeyd edib ki, AXCP sədri Ə.Kərimlinin "REAL" sədri İlqar Məmmədova qarşı planlaşdırdığı mitinqə şəkil çəkdirib mühacirətə getmək istəyən çoxlu sayda insanların gələcəyini də bildirib.

S.Kərimli onu da vurğulayıb ki, əsasən, AXCP sədri Ə.Kərimlinin şəbəkəsində olan şəxslər partiyaya üzv olmayan, siyasi proseslərdə heç bir aktivliyi olmayan, kölgədə qalan bir neçə şəxs var və onlar bu işlə daha "dərin"dən çalışırlar: "Bu kəslərin əsas işi xaricə getmək istəyən müəyyən qədər imkanlı şəxsləri AXCP ilə əlaqələndirmək, onlara arayışlar almaqdır. Hazırda Almaniyada və Hollandiyada xeyli sayda imkanları yaxşı olan azərbaycanlılar siyasi mühacir statusu ilə yerləşiblər. Onlar siyasi mühacir adı ilə getsələr də, dərhal bir neçə xırda şirkət yaradıblar, biznes qurublar, iş görür və pul qazanırlar. Həmin adamların bu ölkələrə gerçək iş adamı kimi getmələri mümkün olmayıb. Onlar Ə.Kərimli tərəfindən saxta arayış almaqla 5-10 min dollar xərc çəkib, siyasi mühacir kimi, Avropaya sığınaraq, daha sonra orada xırda biznesə başlayırlar".

Göründüyü kimi, dağıdıcı müxalifətin, xüsusən də, "ana-ata" müxalifət iddiasına düşən "liderlər"in adı artıq neçənci dəfədir "mühacir biznesi", saxta sənədlərin verilməsində hallanır. Bu isə, onu deməyə əsas verir ki, xalqın etimadını itirmiş AXCP sədri Əli Kərimli kimi "liderlər" demokratiya libasına bürünməklə ən müxtəlif sui-istifadə hallarına yol verir və şəxsi maraqları naminə istənilən yola əl atırlar.

## Aydın Mirzəzadə: "Bu, saxtakarlıqdır, Azərbaycana və azərbaycançılığa qarşı xəyanətdir"

AXCP-nin və digər dağıdıcı müxalifət partiya sədrlərinin müəyyən vəsait müqabilində ayrı-ayrı gənclərə üzvlük vəsiqəsi verərək, onları Avropaya "siyasi mühacir" kimi göndərmələri onlara nə vəd edir? Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadə bildirib ki, onlar, sadəcə olaraq, müəyyən qrup vətəndaşları xaricə göndərmək üçün firma rolunu oynayırlar: "Əvvəlcə, vətəndaşlara üzvlük vəsiqəsi verir, sonra isə ildə bir neçə mitinq keçirir və həmin mitinqlərdə müəyyən olunmuş adamların guya polis tərəfindən tutulması və zorakılığa məruz qalması ilə bağlı foto-



sessiya nümayiş etdirir. Bununla da, həmin şəxslərin xaricə getmələrini təşkil edir. Bu mexanizm Azərbaycan cəmiyyətinə çoxdan məlum idi. Maraqlıdır ki, həmin kommersiyalaşmış müxalifətin rəhbərləri Azərbaycanda qaldıqları halda, partiyaya yeni qəbul olunmuş bir üzv, qısa zamanda, sıxışdırılmaq adı ilə Avropaya mühacirət edir. Doğrudan da, sıxıntı varsa, niyə bu, partiya rəhbərlərinə münasibətdə özünü göstərmir? Azərbaycan cəmiyyətində tanınmayan və heç vaxt, heç bir siyasi prosesdə iştirak etməyən şəxs birdən-birə Avropaya köç edir. Hesab edirəm ki, bu, ilk növbədə, Azərbaycan siyasi müxalifətinin milli maraqlardan çoxdan uzaqlaşmasından xəbər verir".

***Rəfiqə HÜSEYNOVA***




"Dünyada 120 milyon insan aclıqdan və doymamazlıqdan əziyyət çəkir, Afrika ölkələri bu reytinqin çempionları hesab oluna bilər". SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərinə görə, bu rəqəmlər Beynəlxalq Qida siyasəti Tədqiqat İnstitutu tərəfindən nəşr olunan "Ümumi aclıq index" ilə bağlı illik hesabatda öz əksini tapıb. Hesabata görə, iki il əvvəl 80 milyon insan aclıqdan əziyyət çəkirdisə, bu il bu rəqəm 124 milyona çatıb. Eyni zamanda, bu il aclıq və ya qidalanma problemi ilə üzləşən məcburi köçkünlərin sayı təxminən 70 milyona çatıb. Çad, Haiti, Madaqaskar, Sierra Leone, Yəmən və Zambiya daxil olmaqla Afrikanın 6 ölkəsində bu problem ciddi təhlükə səviyyəsinə qalxıb. Aclıqla bağlı ən kritik vəziyyət Mərkəzi Afrika ölkələrində qeydə alınıb. Şimali Koreyada da aclıqla bağlı vəziyyət pisləşib. Belə ki, reytinqdə 27 yerdə olan Şimali Koreya 11 yerdə qərarlaşıb. Rusiya bu siyahıda 98-ci yerdədir. Hesabata əsasən, bu il bir çox ölkələr tərəfindən aclığın aradan qaldırılması istiqamətində keçirilən layihələr əsasında ciddi irəliləyişlər əldə edilib. Lakin bu problemin 2030-cu ilə qədər tam həll ediləcəyi şübhə altındadır. BMT dünya ictimaiyyətinə müraciət edərək xəbərdarlıq edib ki, kollektiv və koordinasiyalı tədbirlərin görülməməsi aclıq və xəstəlikdən ölüm hallarının artmasına, bölgələrdə qeyri-sabit vəziyyətin yaranmasına, eləcə də miqrasiya dalğasına səbəb ola bilər.

# Latviyanın turizm portalında Azərbaycanın əbədi od mənbələri barədə məqalə yerləşdirilib

Latviyanın turgid.Lv. portalında "Odlar Yurdu: Azərbaycanın əbədi od mənbələri" adlı məqalə yerləşdirilib. AZƏRTAC xəbər verir ki, məqalədə Xəzər dənizinin sahilində yerləşən Azərbaycanın neft hasil edən qədim ölkələrdən biri olduğu bildirilir. Ölkədə neft və təbii qaz ehtiyatı o dərəcədə çoxdur ki, onlar demək olar ki, yerin üst qatına özləri "çıxır". Nəticədə Azərbaycanın hər yerində əsl təbii əbədi od alovlanır.

Məqalədə deyilir: "Bu təbii alovların tarixi əsrlərin dərinliyinə gedib çıxır. Məşhur səyyah Marko Polo bu haqda hələ XIII əsrdə yazıb. Sonralar Aleksandr Düma da öz əsərlərində bu əbədi alov mənbələri haqqında xatırladıb. O, Azərbaycanda zərdüştilərin məbədində olmasını təsvir edib. Bütün bunlar ona gətirib çıxarıb ki, Azərbaycan "Odlar Yurdu" adlandırılıb, onun əbədi od mənbələri isə ziyarətgahlara çevriliblər". Məqalədə, həmçinin Yanardağ, Atəşgah, Yanar bulaq kimi yerlərdən danışılır.



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Güliçka hansı "sabun"dan istifadə edir?

## Və ya "brend"in adı Cəmildir

Milli Məclisin üzvü olduğu dönəmdə hakimiyyətə "canla-başla" xidmət etdiyini reklam etdirmək üçün TV ekranlarından çıxmayan, hakimiyyət barədə danışdığı zaman ağzına "çullu dovşan" sığışmayan və hazırda eyni tipajını, obrazını "Milli Şura"da nümayiş etdirən Gültəkin Hacıbəyli çox rahat bir şəkildə Cəmil Həsənliyə "girişib", özü də necə..! Elə onun təmsil olunduğu düşərgədə naftalin qoxusu verən bir ifadə var - "sabunlanmaq". Demə, bu söz nə vaxtsa özlərinə geri dönəcəkmiş. Məsələn, hazırda oxuduğunuz köşə yazısında geri döndərilən kimi...

## Güliçka gecə yatmayıb və səhər o başdan yuxudan ayılan kimi...

Əlqərəz edərək, gəlirəm sözümün canına. Belə ki, G.Hacıbəyli - Güliçka gecə yatmayıb və səhər o başdan, yuxudan ayılan kimi, "Milli Şura"nın sədri Cəmil Həsənli barədə "güclü" status yazıb. Bəh-bəhlə bəytərifi edib və...

Azərbaycanın tarixinə öz əvəzsiz, silinməz izlərini qoymuş mütəfəkkirləri, dövlət və siyasət xadimləri ilə eyni məqamda tutub (???!!!-R.). Və demə, C.Həsənli Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Cavid, Bəxtiyar Vahabzadə, Elçibəy və Xudu Məmmədovla eyni sırada dayanırmış..! Belə yerdə deyərlər ki, eyvah xalqım, gör nə günlərə qaldıq ki, mal oğrusu, DTK agenti Cəmil, Gültəkinin sarsaq təfəkkürü ilə gəlib bu cür şəxsiyyətlərlə eyni sırada dayandı. Əslində, çox hiddətləndirici bir haldır, ancaq təəccüblü də deyil.

## Mal oğrusu, DTK agenti, yediyi qazanına iki dəfə tüpürən riyakar və satqın!

Gəlin müqayisə edək və görək Gültəkinin "təfəkkürü" haraya qədər "inkişaf" edib. Məhəmməd Əmin Rəsulzadə ADR-in qurucusu və Şərqdə ilk demokratik müsəlman dövlətinin yaradıcısı olub, bu günün müstəqil Azərbaycan dövləti tarixi hakimiyyətin varisidir, C.Həsənli isə Biləsuvarda və Cəlilabadda mal oğrusu kimi tanınıb, onu oğurluq əməllərinə görə, həmkəndliləri qovublar. Üzeyir Hacıbəyli Azərbaycanın dünyaca məşhur bəstəkarı və mütəfəkkiridir, C.Həsənli isə riyakar, siyasi arenada öz məqsədlərinə çatmaqdan ötrü iki dəfə (!-R.) yediyi qazana tüpürən satqındır. Cavid Azərbaycan xalqının dahi dramaturqudur, C.Həsənli isə DTK-nın hələ SSRİ- dövründə Azərbaycanın müstəqilliyi uğrunda gizli mübarizə aparanlara qarşı istifadə edilən agenti, Bəxtiyar Vahabzadə, Elçibəy, Xudu Məmmədov xalqımızın tarixində rol almış böyük şair, özünəməxsus siyasətçi və nüfuzlu elm xadimləriydilərsə, C.Həsənli ona-buna satılan, erməniyə dayı deyən Vətən xaini!

## Güliçka və qoca professorun yorğalıq məsələsi

Beləliklə, Cəmilin filan yerinə əməlli-başlı "sabunlanaraq" girən Güliçkanın, çox yəqin ki, məqsədi var. Ya onun Cəmildən işi keçəcək, ya da qoca professorun onun üzərində siyasi yorğalıq etməsinə ehtiyacı yaranıb. Yoxsa nə baş vermişdi ki, Güliçka birdən-birə səhər-səhər yuxudan duraraq, üz-gözünü yumamış onun barəsində "sabunlu", "şampunlu", hələ üstəlik, "vazelinli" status guppuldadıb?! Yəqin torpada pişikdən-zaddan varıymış...

***P.S. Gültəkin Hacıbəyli bu dövlətə, bu hakimiyyətə xidmət edənləri həmin statusunda aşırı şəkildə təhqir edib. Fəqət, unudub ki, dəfələrlə (!-R.) dövlətimizin maraqlarını axmaqsayağı mitinqlərdə erməni maraqlarına satan da o və C.Həsənli olub. Necə deyərlər, söyüş yiyəsinə çeviriliblər. Ona görə də, nə qədər həqarət etsə belə, həmin təhqirlər elə onların öz boyunlarına biçilir. Bax, bunu qulaqlarında sırğa etsinlər. İstər sabunlu, istərsə də sabunsuz...***

# Əli Kərimlinin “Avropa müxalifətini” ələ almaq cəhdi ifşa olunur

## *Düşərgədə bu cür fikirləşənlərin sayı artır*

***Qondarma “hüquq müdafiəçisi” rolunda çıxış edən Qurban Məmmədovun “Milli Şura” rəhbərliyini, xüsusilə, AXCP sədri Əli Kərimlini ağır ittihamlara məruz qoymasının ardınca, müxalifətdə sözügedən mövzu ətrafında maraqdoğurucu reaksiyalar üzə çıxmağa başlayıb. Xüsusilə, konstruktiv müxalifət radikallar arasında gedən savaşa maraqlı proqnozlar verirlər.***

Bu mənada, daha çox münasibət bildirən tərəf, məhz vaxtilə AXCP sədri Ə.Kərimlinin yaxın ətrafından olmuş Razi Nurullayev, Ehtiram Mehdiyev, eləcə də, digərləridir. “Yurd” sədrinin siyasi fırıldaqları və oyunbazlıqlarına, partiyada apardığı avtoritar idarəçiliyinə qarşı etiraz əlaməti olaraq, onu tərk edib, alternativ AXCP yaradanların əsas iddialarından biri də budur ki, Ə.Kərimli partiya daxilindəki rıçaqlarını itirməyə başladıqdan sonra, indi də Avropada “siyasi mühacir” adı altında məskunlaşmış, müxtəlif qaranlıq xarici dairələrə agentliklər edən müxalifyönlüləri öz inhisarına almağa cəhd göstərir. Xüsusilə, Q.Məmmədov məsələsi üzə çıxandan sonra bu mövzu siyasi müxalifət daxilində daha da aktuallaşmağa başlayıb.

### Razi Nurullayevin AXCP-si hərəkətə keçib

Bu məsələ “şişdikdən” sonra, əsasən, AXCP sədri Ə.Kərimliyə qarşı çıxan müxalifət kəsimi hərəkətə keçib. “Ölkədə müxalifəti monopoliyada saxlamağa çalışan, ənənəvi müxalifətin əbədi və qaim-qədim başbiləni kimi qalmaq istəyən Ə.Kərimli indi də “pərakəndə Avropa müxalifətini” inhisara almaq üçün hücuma keçib”. Bu fikirləri də R.Nurullayevin sədri olduğu AXCP-nin sədr müavini Tural İrfan deyib. Onun sözlərinə görə, Q.Məmmədov kimiləri Ə.Kərimlinin təsir dairəsində olan Qənimət Zahid, Vidadi İsgəndərli, Laçın Məmişov kimilərə asan təslim olmaq istəmir: “Son günlər Avropada mühacirətdə olan müxalif düşərgə birbirinə dəyib. Buna ilkin səbəb, onlardan sui-istifadə edərək, Azərbaycanda həqiqi müxalifətə və xalqa qarşı təsir rıçaqı yaratmaq arzusunda olan gizli əl Ə.Kərimlidir. Bunu ona, də-fakto aləltik edən Avropa zümrəsi də, onlarla döyüşən Q.Məmmədov cəbhəsi də açıq sezir”.



### “Üç videoya baxandan sonra ən savadsız adam belə hansının kimin və ya kimlərin təsirində, inhisarında olduğunu dərk edir”

“Avropada yaylaqlanaraq, hərəsi bir kompüterin arxasında əyləşən dil pəhləvanları Azərbaycandakı Ə.Kərimli kimi “sudyaları”nın fit verməsi ilə güləşir” deyə bildirən alternativ AXCP-nin rəsmisi deyib ki, gündə hərəsi bir video yerləşdirməklə, gah nala-gah mıxa vurur, gah da barmaqlarına döyəcləyirlər: “Üç videoya baxandan sonra ən savadsız adam belə hansının kimin və ya kimlərin təsirində və inhisarında olduğunu dərk edir. Elə oradaca həmin videonun altında gecikmədən öz fikrini ifadə edir. Özlərini xalqın ümid yeri kimi qələmə verib sonra bir-birinin üstünə düşən “müxalifətçilər” və “inqilabçılar” xalqımız qarşısında özlərini biabır etməklə yanaşı, azsaylı insanların olub-qalan inamını da heç etdilər”.

“Vidadi İsgəndərli, Qurban Məmmədov, Qənimət Zahid, Nahid Cəfərov, siz iqtidara gəlsəniz, hakimiyyət daxilində də bir-birinizi qıraraq, xalqı bada verəcəksiniz?” sualını verən T.İrfan qeyd edib ki, bu kimi suallara cavab verməyə əvəzinə, Ə.Kərimlinin aktyorları daha emosiyalı tərzdə rollarını ifa etməyə, daha da qızışmağa, səs yazıları və şahidlərlə bir-birini ifşa etməyə can atırlar: “Nəticədə, özünü müxalifətin yeganə başbiləni kimi görən kərimlilər və həsənlilər saxta mövqelərini daha da bərkidərək, eyhamla gülümsəyirlər. “Görürsünüzmü, bizik əsl müxalifət, bizsiz siz busunuz !.. Halbuki bu oyunları quran və idarə edən elə onların özləridir. Avropada olan müxalifətçi, Ə.Kərimlinin ağalığını qeydşərtsiz qəbul etmirsə, onu ya agent, ya da satqın damğası ilə şərləyib, oyundan çıxarırlar. Necə ki, Q.Məmmədovun orada mövqeyini möhkəmlədib, özünə geniş auditoriya yığaraq müzakirələr nəticəsində bir çox gizlinlərə aydınlıq gətirməsi həmin gizli əllərə sərf etmədi və nəticədə, cəngü-cidal başlandı”.

### “Cəmil Həsənli və Gültəkin Hacıbəyli isə Əli Kərimlinin sözçüsü rolunda bu savaşı daha da körükləyir”

Alternativ cəbhəçinin sözlərinə görə, ağıllarına və ağızlarına nə gəldi danışmağa ərinməyən bu şəxslər, özlərinə bəslənən cüzi inamı da sarsıdaraq, iddia etdikləri kimi azad və sərbəst olmadıqlarını sübut etdilər: “C.Həsənli və G.Hacıbəyli isə Ə.Kərimlinin sözçüsü rolunda bu savaşı daha da körükləyir. İlqar Məmmədov özünü guya bu oyunlardan kənar tutsa da, əslində, elə susmağı ilə öz mövqeyini ortaya qoymuş olur: qoy parçalansın, özlərini hörmətdən salsınlar, təkcə mən pak və müqəddəs görünüm. Necə oldu, həbsdə olarkən, dindarların hüquqlarını müdafiə edirdi, çıxan kimi, bir çoxlarıtək, onları unutdu? Özünü (indən belə) ehtiyatlı siyasətçi kimi göstərməyə çalışan bu şəxsin də Avropa oyunlarından xəbəri olmamış deyil. Ə.Kərimlinin gizli yollarla körüklədiyi Avropa ocağını İ.Məmmədov söndürmək istəmir, amma seyrçi qalır, niyə? Bəlkə onun da Ə.Kərimli ilə aralarının (guya-fikir onundur-red.) sərin olması başqa bir görüntü, alayı bir oyundur? Böyük ehtimalla belədir. Q.Məmmədovun “debatları”nın daxildə nəyə xidmət etməsi mənə maraqlı deyil, ancaq zahirdə Q.Zahid, V.İsgəndərli, Ə.Kərimli, C.Həsənli kimilərə qarınağrısı təsiri yaradır. Son aylarda, əsasən, siyasi mövzuda gedən müzakirə, mübahisələr, artıq ikinci-maddiyyat və sosial baza mərhələsinə keçid alanda, dərhal Bakıdan dirijor Ə.Kərimli çubuqlarını havada yellədi və orkestr ifaya başladı. Hərçənd ki, Q.Məmmədov və Nahid Cəfərli də ortaya ağlabatan və normal fikir qoya bilməyiblər. Ən azından, bu oyunlarda rol alıb, xalqın olub-qalan inamını sarsıtmaq naminə xidmət göstərirlər. Şəxsi eqo və ambisiyalar bu şəxsləri elə çulğayıb ki, Ə.Kərimlinin Avropadakı resurslarına çevrikdiklərinin fərqində deyillər. Onun maddi qaynaqlarına az qala zərər gətirəcəklər. Beləliklə, Ə.Kərimli, C.Həsənli və G.Hacıbəylinin əlində oyuncağa, alətə çevrilmiş “Milli Şura” ölkə daxilindəki sağlam müxalif qüvvə və şəxsləri qarşı-qarşıya qoyduqdan, aralarını vurduqdan sonra indi də Avropaya əl atdılar. Nəticədə, xalqımız gördü və təsdiq etdi ki, bu cür intriqaçı, şəxsi mənafe güdən, eqoist, radikal qüvvələrdən ona heç bir kömək ola bilməz”.

Beləliklə, bir daha bəlli olur ki, sözdə müxalifət adı altında intriqa və qarşıdurmalarla gündəmdə qalmağa çalışan bu kimi siyasi dələduzlar, əslində, özlərini təmizə çıxarmaq cəhdləri ilə daha da ifşa olunurlar. Bu kimi davamlı ifşalar isə, özləri-özlərinin xalqdan təcrid edilməsi ilə nəticəsini tapır.

***Rövşən RƏSULOV***

## Artıq bu imtahanları DİM-də verə biləcəksiniz

Dövlət İmtahan Mərkəzi “Pearson VUE” təşkilatının rəsmi kompüter əsaslı test mərkəzi olaraq beynəlxalq sertifikat təqdim edən “PTE Academic”, həmçinin müxtəlif sahələrə aid (İT, Maliyyə, Mühasibat, Menecment, Tibb və s.) 100-ə yaxın imtahanı keçirmək hüququnu əldə edib. Bu barədə SİA-ya Mərkəzdən məlumat verilib. Qeyd edək ki, “Pearson VUE” təhlükəsiz şəraitdə onlayn imtahanlar keçirən və test sahəsində fəaliyyət göstərən şirkətlər arasında lider hesab olunur. “Pearson VUE” hər il 14 milyondan çox insanın imtahan verdiyi, Microsoft, CFA, CİMA, HP, Cisco, və s. şirkətlərin tərəfdaşı olduğu test mərkəzidir.

Dövlət İmtahan Mərkəzində verə biləcəyiniz imtahanların siyahısı ilə buradan tanış ola bilərsiniz. İmtahanlarda iştirak etmək üçün pearsonvue.com saytında hesab açmaq lazımdır. Daha sonra imtahan verəcəyiniz proqramı seçib şəxsi hesabınıza daxil olursunuz və qeydiyyatdan keçirsiniz. Qeydiyyatdan keçərkən imtahan verəcəyiniz test mərkəzi kimi “Azerbaijan Republic State Examination Center” seçilməlidir. Test mərkəzini seçdikdən sonra DİM-də mümkün olan imtahan günləri və s. məlumatları əldə edə bilərsiniz.

## “Nar”-la bağlı suallara cavab ver və 250 danışıq dəqiqəsi qazan




Hər zaman yenilikləri və maraqlı layihələri ilə seçilən “Nar” abunəçiləri və sosial şəbəkə iştifadəçiləri üçün növbəti maraqlı müsabiqə elan edir. İnternet üzərindən keçirilən “”Nar”-ı nə qədər yaxşı tanıyırsan?” müsabiqəsində iştirak edənlər mobil operator haqqında verilən sualları cavablandırmaqla pulsuz danışıq dəqiqələri qazanaqcaqlar. Müsabiqə oktyabrın 10-u saat 12:30-da başlayır və 12 oktyabr saat 23:59-da yekunlaşacaq.

Bütün suallara düzgün cavan verən şəxslər 250 şəbəkədaxili, yarışda iştirak edib nömrəsini qeyd edən istifadəçilər isə 50 şəbəkədaxili dəqiqə qazanacaqlar. “Nar”-ın sosial şəbəkə hesablarında keçirilən müsabiqədə suallar mobil operatorun məhsulları, kampaniyaları, xidmətləri, korporativ sosail layihələri (KSM) və sponsorluq fəaliyyəti haqqındadır. Nəticələr 15 oktyabrda elan olunacaq və iştirakçılara elə həmin gün SMS göndəriləcək. Müsabiqədə bu keçid vasitəsilə iştirak etmək olar: https://www.nar.az/nar-questions.html

“Nar” kampaniyaları, məhsul, xidmət və tarifləri haqqında məlumatı nar.az internet səhifəsindən öyrənmək olar. “Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Bakcell şirkətinin baş icraçı direktoru CCİAF-ın İdarə Heyətinə üzv seçilib



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının (CCİAF) İdarə Heyətinə üzv seçilib. Belə ki, CCİAF-nin oktyabrın 5-də keçirilən ümumi yığıncağında Nikolai Beckers Palatanın İdarə Heyətinin 9 üzvündən biri seçilib.

Biznes sahəsinin ən mühüm təşkilatları və tədbirlərində fəal şəkildə iştirak edən Bakcell şirkəti ölkənin biznes mühiti və iqtisadiyyatının inkişafına böyük töhfə vermək-də davam edir. Belə təşkilatların biri də “Bakcell”in 2017-ci ildən bəri üzv olduğu Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasıdır. Şirkət CCİAF-nin bir neçə uğurlu layihəsinə, o cümlədən də Azərbaycanda ilk dəfə olaraq keçirilmiş “ActInSpace 2018 Azerbaijan” beynəlxalq innovasiya müsabiqəsinə dəstək göstərib. “Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının İdarə Heyətinə üzv seçildiyim üçün qürur duyuram. Göstərdikləri etimada görə İdarə Heyətinin digər üzvlərinə öz təşəkkürümü bildirirəm.İnanıram ki, biznesin inkişaf etdirilməsi və iş əlaqələrinin yaradılması sahəsində beynəlxalq təcrübəm palatanın fəaliyyətinə töhfə verəcək”,deyə Nikolai Beckers bildirib.

Qeyd edək ki, Nikolai Beckers Bakcell şirkətinin baş icraçı direktoru vəzifəsinə 2016-cı ildə təyin olunub. Bundan qabaq o, Qərbi və Şərqi Avropa və Cənub Şərqi Asiya ölkələrinin qabaqcıl telekommunikasiya şirkətlərində müxtəlif rəhbər vəzifələrdə çalışıb.

# Pənah Hüseyn İsa Qəmbərin "casusu" çıxdı

## *"Qarabağ Komitəsi"ndə və "Milli Şura"da yenidən ara qarışdı*





***Satqın və xəyanətkar mövqeləri ilə seçilən dağıdıcı müxalif ünsürlər hər fürsətdə öz yaramaz və sərsəm əməlləri ilə, ən azı, mətbuatın diqqət mərkəzinə çevrilməyə çalışırlar. Bunu sübut etmək üçün kifayət qədər tutarlı faklar da mövcuddur.***

Təkcə bir faktı qeyd etmək lazımdır ki, erməni lobbisinin yer aldığı qərəzli beynəlxalq təşkilatların Azərbaycan haqqında şər-böhtan xarakterli hesabatları dağıdıcı müxalifətin "donos"ları əsasında hazırlanaraq yayılır. Artıq sular duruldqca müxalifətin xarici maraqlı dairələrə ünvanladıqları "donos"ların mətni üzə çıxmaqdadır. Maraqlı məqam ondan ibarətdir ki, milli və dövlətçilik maraqlarına zərbə vurmaqla özlərinə maliyyə imkanları əldə edən müxalif "donos"çuları başqaları deyil, aralarında olan əqidə dostları ifşa edirlər. Misal kimi sosial şəbəkələrdə Əli Kərimlinin "söyüş qrupu"nun üzvü kimi tanınan Elşən Həsənovun "Milli Şura"nın sözçüsü Oqtay Gülaliyevi "başından böyük qələtlər eləməkdə" günahlandırmaqla yanaşı, "Siyasi Məhbusların Monitorinq Mərkəzi"nin adından saxta "siyasi məhbus" siyahısı hazırlamaqda ittiham edib. Hətta E.Həsənov O.Gülaliyevi sosial şəbəkələrdə ifşa edəcəyi ilə hədələyib.

### Oqtay Gülaliyev dələduzluqda ittiham edildi

E.Həsənovla yanaşı, "Milli Şura"nın koordinasiya şurasının üzvü Eldəniz Quliyevə yaxınlığı ilə seçilən qondarma "hüquq müdafiəçisi" Gülnaz Qəmbərli də O.Gülaliyevi dələduzluqda, dəllallıqda və satqınlıqda ittiham edib. Bildirib ki, bu hesabata siyasətə dəxli olmayan dələduzlar, korrupsionerlərin adları, göstərdikləri maliyyə dəstəyi müqabilində salınıb".G.Qəmbərli qınayıcı ittihamla O.Gülaliyevi əzməyə də çalışıb: "Hamı siyasi mühacir alverində qınayır, bəy, bir utanın".

Bütün bu tipli faktlara baxmayaraq, milli və dövlətçilik maraqlarını satmaqla əldə etdikləri qrantlar hesabına xarici ölkələrdə mülklər alan, övladlarını müxtəlif xarici ölkələrin təhsil ocaqlarında oxutduran Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri son günlər bir qədər fəallaşıb. Səbəb də, ortaya yeni qüvvələrin çıxaraq, Qarabağ adı altında mitinqlər təşkil etməsi, yığıncaqlar keçirib pafoslu açıqlamalar verməleridir. Baxmayaraq ki, Pənah Hüseynin, İsgəndər Həmidovun, Əvəz Zeynallının, Akif Nağının, Tural Abbaslının təşkil etdikləri Qarabağla bağlı mitinqlərə qatılanların, onların mövqeyini dəstəkləyənlərin sayı kifayət qədər azdır. Səbəb də, insanların sözügedən şəxslərin məkrli niyyətlərinin nədən ibarət olmasını bilmələridir. Digər tərəfdən, xalq birmənalı şəkildə, dövlət başçısının Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində yorulmadan çalışdığını görür və izləyirlər. Məsələ ilə bağlı YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Növruzovun çox tutarlı və məntiqli münasibəti mövcuddur. "Cənab Prezident Nazirlər Kabinetinin iclasında da bildirdi ki, Azərbaycanın ərazi bütövlüyü danışıqların predmeti ola bilməz. Bu, hər bir insana bir mesajdır" deyə Siyavuş Novruzov bildirib. YAP İcra katibinin müavini, onu da bildirib ki, Azərbaycanın Dağlıq Qarabağla bağlı dövlətinin, Prezidentinin, xalqının mövqeyi bəllidir. Bu çərçivədən sonra hansı danışıqlar aparıla bilər? İkinci bir tərəfdən, Cənab Prezident bütün danışıqlarla bağlı ictimaiyyətə həmişə məlumatlar verir: "Xalq dövlət başçısına mandat verib ki, Prezident onun adından danışmaq, sənəd imzalamaq, fikir mübadiləsi aparmaq səlahiyyətinə malikdir. Burada mitinq keçirməklə və yaxud da 5-10 adamı yığmaqla nəyə nail olmaq olar? Təbii ki, heç nəyə. Necə ki, vaxtilə "Şuşa getsə, başıma bir güllə çaxacağam", "bir maşın erməni başı gətirəcəyəm" deyənlər bugünkü mitinqlərdə öndə dayanıblar. Bunlar siyasi oyunbazlıq edirlər. Azərbaycan xalqı bunları görür və məhz onları boykot edirlər. O oyunbazlar başa düşsünlər, gedib öz işləri ilə məşğul olsunlar, Dağlıq Qarabağ adı altında öz oyunlarını oynamasınlar. Bir növ ölmüşlər, özlərini yenidən diriltmək üçün Qarabağ adından, insanların həssas münasibət bəslədiyi məsələdən istifadə etmək istəyirlər. Eləcə də, bir qrup Avropada oturub çağırış edir. Öz təminatını xarici kəşfiyyat idarələri, erməni lobbisi tərəfindən təmin edir. Bu cür düşüncəli insanların orada toplaşıb, Qarabağ adı çəkməsinin özü, hesab edirəm ki, prosesin özünə ziyan gətirir".

### "Qarabağ komitəsi"ndə çaxnaşma yaranıb

Qarabağla bağlı bir qrup müxalifətçinin mitinq keçirməsi və uğursuzluğa baxmayaraq, noyabrın 24-ə yenidən mitinq planlaşdırması Müsavat və AXCP funksionerlərini ciddi narahat edib. Ən azı, ona görə ki, xarici fondların, qərəzli təşkilatların məkrli planlarını həyata keçirə bilməyəcəklər. Həm də, istiqamət dəyişə, təmsilçilər P.Hüseyn, İ.Həmidov ola bilər. Bu isə Ə.Kərimlinin və A.Hacılının xaricdən maliyyə vəsaitləri əldə etmək planlarının üstündən xətt çəkilməsi deməkdir. Bu baxımdan, hər vəchlə çalışırlar ki, əqidə dostlarını sıxışdırsınlar və əski mövqelərinə qaytarsınlar. Buna necə nail olacaqlarını demək, hələ ki, çətin olsa da ortada olan fakt, yalnız ondan ibarətdir ki, müxalifətin texnoloqu kimi tanınan AXP sədri P.Hüseyn Müsavatın keçmiş başqanı İ.Qəmbərin göstərişlərini yerinə yetirməkdədir. Başqa cür də olması inandırıcı görünmür. Çünki P.Hüseyn AXP-nin sədri olsa da yeganə qeyri-müsavatçıdır ki, Müsavat partiyasının divanının və məclisinin toplantılarında iştirak edir. Bəzən müxalifətin toplantılarında P.Hüseyn İ.Qəmbərin sözçü rolunda çıxış edərək, ideya və təkliflər irəli sürür. Bu baxımdan, inandırıcı deyil ki, P.Hüseyn İsa Qəmbərin icazəsi olmadan, "Qarabağ Komitəsi"ndə təmsil olunsun. Bu barədə ehtimallarımızı komitədəki mənbəmiz də təsdiq etdi. Bildirdi ki, P.Hüseyn komitədə özünü Müsavatın təmsilçisi kimi aparır. Bəzən şübhəli suallar verir, təkliflər səsləndirir. Mənbəmiz, onu da qeyd etdi ki, noyabrın 8-də keçirilməsi nəzərdə tutulan komitənin ümumiləşdirilmiş toplantısında P.Hüseynin "Qarabağ Komitəsi"ndən xaric olunması məsələsi müzakirəyə çıxarılacaq.

**İ.ƏLİYEV**

# "Müxalif liderciklər illər boyu bir-birlərini söyüblər"

## *Tahir Kərimli: "Müxaliflər bir-birini sıradan çıxarmaq üçün əllərindən gələni edirlər"*

***- Tahir bəy, İlqar Məmmədovun sözçüsü rolunda çıxış edənlər Əli Kərimli, İsa Qəmbər və Arif Hacılı ilə birgə tədbirlərin, hətta koalisiyanın yaradılması təklifi ilə çıxış edirlər. Sizcə, onlar bir araya gələ bilərlərmi?***



**Müsahibimiz Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimlidir**

- Müxalifətin bir araya gəlməsi mümkün olan məsələ deyil. Çünki dağıdıcı müxalifət düşərgəsini təmsil edən ünsürlər bir-birinə qarşı aqressiv mövqedədirlər. Yəni birlik, bir olmaq naminə bir-birinə güzəştə getmələri mümkünsüzdür. Çünki iddialıdırlar. Ümumiyyətlə, bütün siyasi fəaliyyətləri dönəmində, müxalifətçilər bir-birinə qarşı mehriban düşmən olublar, liderlik ambisiyalarını ortaya qoyublar və partiya maraqlarını önə çəkiblər. Ona görə də, adları çəkilən bu şəxslərin birləşmələri mümkün deyil. İkincisi də, onlara kim inanır ki, yaratdıqları qurumlara da kimlərsə toplansınlar. Lap tutalım ki, bunlar formal olaraq birləşdilər, bəs sosial bazalar necə birləşəcək? Sıravi şəxslər bilməyəcəklərmi ki, müxalif liderciklər illər boyu bir-birlərini söyürlər, təhqir edirlər. Birmənalı şəkildə, demək olar ki, müxalifətin birliyi alınan deyil. Bunu müxalifət düşərgəsini təmsil edən şəxslərin özləri də çox gözəl bilirlər ki, onların xalq tərəfindən heç bir dəstəyi yoxdur.

***- Məlum faktdır ki, "REAL"çılar cəbhəçilərə qarşı sosial şəbəkələrdə təhqiramiz ifadələrlə çıxış edirlər. Bunu bir növ Əli Kərimli-İlqar Məmmədov qarşıdurması kimi də qiymətləndirmək olarmı?***

- Bildiyiniz kimi, İsa Qəmbər başqanlıqdan gedəndən sonra cəbhəçilər Əli Kərimlini müxalifətin "vahid lideri" sayırlar. Belə olan təqdirdə, İlqar Məmmədovun önə çıxmağa cəhd göstərməsi cəbhəçiləri qıcıqlandırır. Nəyə görə? Çünki cəbhəçilər geniş sosial bazaya malik olduqlarını düşünürlər və hesab edirlər ki, onların uzunmüddətli siyasi təcrübələri var. Ancaq "REAL"ın belə bir imkanı yoxdur. Ona görə də, çox qıcıqlanırlar. Eyni zamanda da, cəbhəçilər digər iddialı müxalifətçiləri də qəbul etmirlər. Buna baxmayaraq "REAL" partiya yetkililəri də, onu güclü hesab edir. Ə.Kərimliyə qarşı sözlərini deməkdən çəkinmirlər. Bu da, tərəflərarası qarşıdurmaya və çəkişmələrə gətirib çıxarır.

***- Necə düşünürsünüz, İlqar Məmmədov - Əli Kərimli konfliktinin dərinləşməsindən Müsavat başqanı Arif Hacılı öz məqsədləri üçün istifadə edə bilərmi?***

- Ümumiyyətlə, adları çəkilənlərin təmsil olunduqları partiyaların heç biri müxalifət düşərgəsində aparıcı partiyaya və güc mərkəzinə çevrilə bilmirlər. Belə olan halda da, önə çıxmaq və öz varlıqlarını bildirmək üçün çıxış yolunu müxalifət düşərgəsində təmsil olunan digər partiyaları zəiflətməkdə görürlər. Çəkişmələrlə, bir-birinə qarşı ittihamlar irəli sürməklə özlərinin varlıqlarını nümayiş etdirirlər. Demək olar ki, müxaliflər bir-birini sıradan çıxarmaq üçün əllərindən gələni edirlər.

**GÜLYANƏ**

# Əli Kərimli "AND" hərəkatının pullarını mənimsəyir

***AXCP sədri Əli Kərimlinin nəzarətində olan "AND" hərəkatının guya şəhid və "siyasi məhbus" ailələrinə "yardım" məqsədi ilə pulyığma kampaniyası ətrafında bir sıra məsələlər üzə çıxmağa başlayıb. Sözügedən məsələ ilə bağlı redaksiyamıza zəng edən və özünü AXCP-nin gənclər birliyinin üzvü kimi təqdim edərək, bəlli səbəblərə görə, adının açıqlanmasını istəməyən mənbə adıçəkilən hərəkatın saxtakarlıqla məşğul olduğunu bildirib.***



### "#mendevaram" həşdəqi ilə keçirilən aksiyada əldə olunan maliyyə vəsaitlərinin yeri bəlli deyil

"AND, bilavasitə Əli bəyin təşəbbüsü ilə yaradılan hərəkatdır və aparılan kampaniyanın məqsədi əvvəllər, həqiqətən də, məlum ünvanlara yardım etməkdən ibarət idisə, artıq həmin məqsədə, ümumiyyətlə, riayət olunmur" deyə qeyd edən cəbhəçi gənc, eyni zamanda, bildirib ki, sosial şəbəkələrdə "#mendevaram" həşdəqi ilə keçirilən aksiyada əldə olunan maliyyə vəsaitlərinin birbaşa AXCP-nin, daha dəqiq desək, Ə.Kərimlinin büdcəsinə axdığı məlum olub: "Məhz bu səbəbdən, kampaniyanın iflasa uğrayacağını anlayan adıçəkilən hərəkat üzvləri, yeni bilavasitə, Ə.Kərimlinin tapşırıqları ilə hərəkət edən tərəflər dərhal facebook vasitəsilə, əslində, həqiqəti əks etdirən informasiyaları yalanlamağa çalışırlar".

<u>Mənbə:</u> **"Əli Kərimli bu günə qədər, bir dəfə də olsun, bizim hər hansı bir problemimizlə maraqlanmayıb... Əks fikir söyləyəndə isə, təhdidlərə məruz qalmışıq"**

"Milli Şura"nın qarşıdakı günlərdə mitinq keçirmək planları var və bunun üçün əlavə maliyyə ehtiyacları yaranıb" deyən AXCP-dən olan mənbə, həmçinin, bildirib ki, onun kimi bütün bunlardan bezən onlarla cəbhəçi gənc var: "Əli bəy bizə gördüyümüz işlərin müqabilində maddi dəstəyin göstəriləcəyini dəfələrlə bildirib, lakin bu günə qədər, bir dəfə də olsun, bizim hər hansı bir problemimizlə maraqlanmayıb. Əks fikir söyləyəndə isə, təhdidlərə məruz qalmışıq".

"Bu məsələdə də əldə edilən vəsait heç bir ailəyə çatdırılmayıb" deyə qeyd edən mənbə əlavə edib: "Uzağı ilk vaxtlar, gözdən pərdə asmaq üçün, bir neçə ailəyə maliyyə dəstəyi göstərilib. Artıq buna da son qoyulub. Bəs əldə edilən digər vəsaitlər haradadır? Niyə guya yardım göstərilən şəhid və "siyasi məhbus" ailələri, bir dəfə də olsun, sosial şəbəkələr, yaxud internet TV-lərə çıxıb, "AND" hərəkatının kampaniyası barədə bir kəlmə də olsun danışmırlar? Çünki ortada heç nə yoxdur. Pullar mənimsənilib".

Qeyd edək ki, AXCP sədri Əli Kərimli, daha öncələr də, bənzər "təşəbbüslərlə" çıxış edərək, insanları aldatmaq yolu ilə maddi vəsaitlər əldə edib və sonradan həmin vəsaitlərin hansı istiqamətdə xərclənməsi də bəlli olmayıb. O cümlədən, bu gün AXCP-də fəallıqları ilə seçilən cəbhəçilər də Ə.Kərimlidən əmək haqlarını ala bilmirlər. Bu fakt da, belə qənaətə gəlməyə əsas verir ki, əslində, cəbhəçilərin sədri evin başında oturan əsas oğrudur.

**Rövşən NURƏDDİNOĞLU**

# Ömər Faiq Nemanzadə qadın hüquqları haqqında

***Ömər Faiq Nemanzadə cəmiyyətdə qadınların kişilərlə bərabərhüquqlu olması fikrini irəli sürür və ardıcıl müdafiə edirdi. "Şəlalə" qəzetinin qadın ləyaqətini kiçildən zərərli fikirlərini (guya qadının üzüaçıq gəzməsi əxdaqsızlıqdır!) Ömər Faiq tənqid və ifşa edir, hicab məsələlərindən söhbət açaraq deyirdi ki, qadın birinci növbədə, uşaqların tərbiyəsi ilə məşğul olan anadır, odur ki, qadınlar elmə, maarifə və mədəniyyətə yiyələnməlidirlər. Ümumiyyətlə, o, qadın azadlığı problemini xalqın ictimai-siyasi azadlığının tərkib hissəsi kimi götürürdü.***

Akademik Firudin Köçərli yazır: "Faiq, xüsusilə, "Molla Nəsrəddin" jurnalında qadın hüququ məsələsinə dair müxtəlif məzmunlu, rəngarəng üslublu məqalələr yazmaqla, belə hesab edirdi ki, hər bir millətin tərəqqisi cəmiyyətdə qadınların vəziyyəti ilə ölçülür. Savadlı, ziyalı qadın savadlı da nəsil tərbiyə edib, yetişdirə bilər. O, sonralar yazırdı ki, Qaraqoyunlu kimi bir kənddə məhəllə məktəbi belə yox idi. Lakin "Buralarda qadınlar möminlərin, köhnədən bəri deyilən kimi, kişilərin, xüsusilə, şeyxlərin əyləncə və iş malları idi... Bir çox şeyxin iki-üç şəri arvadı olduğuna baxmayaraq, şeyx hərəmxanası - kiçik bir ölçüdə olsa da - Soltan Həmidin çox böyük hərəmxanasına oxşayırdı. Gündəlik həyatımızda ictimai yararlılarımızın ən qorxulu və ən zərərlilərindən biri də qadınlara qarşı bəslədiyimiz qara fikirlər və vəhşi adət və işlərimizdir. Onlar haqqında edilən zülm və işgəncələr azalmaq yerinə, gündən-günə artırdı".

Faiqin fikrincə, millətin cəhalət girdabında yaşamasının əsas səbəblərindən biri qadınların savadsızlığıdır. O, "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi "Pişik" adlı hekayəsində yazırdı ki, xurafatdan, əsarətdən, cəhalətdən qurtulmaq üçün qüvvətli bir əl meydana çıxıb, ona mane olanları cırmaqlasa, sonrakılara yol açılar, iş asanlaşar. Bu "qüvvətli əl" isə camaat özüdür, camaatın gücüdür.

Faiq cəmiyyətin, xalqın mənəvi əxlaqi yüksəlişini "azadlıq hakimiyyəti" qurulması ilə əlaqəli görürdü. O, içərisində yaşadığı cəmiyyətin, feodal-klerikal dairələrin əxlaqi eybəcərliklərini konkret faktlarla tənqid və ifşa edir və göstərirdi ki, nəcib əxlaqi sifətlərin yaradıcısı zəhmətkeşlərdir, sadə əməkçilərdir. Hakim siniflərin nümayəndələri isə əməkdən boyun qaçırır, onların fikirləri var-dövlət toplamaq, işləri-gücləri qumar oynamaq, sərxoşluq etməkdir. Ömər Faiq günlərini cindarlıq, cadugərlik ilə keçirən "əmmaməliləri" lağa qoyur, əməksevərliyi, işgüzarlığı yüksək, nəcib əxlaqi keyfiyyət kimi təqdir edirdi. O, dönə-dönə deyirdi ki, ziyalılar camaatı gələcək üçün hazırlamalı, xalqa öz xeyrini-zərərini, sosial ehtiyaclarını başa düşməkdə kömək göstərməlidir."

Faiqin əxlaqi-etik görüşləri özünün humanist istiqaməti və demokratik məzmunu ilə fərqlənir. O, insanlıq tərbiyəsi məsələsini qoyur və belə hesab edirdi ki, xalqa xidmət etmək, hər bir vətəndaşın, birinci növbədə, ziyalıların vəzifəsi, əxlaqi borcudur, ziyalı yüksək mənəvi-əxlaqi sərvətlərin daşıyıcısı olmalı, xalqa xidmət idealı ilə yaşamalıdır. Ziyalı xalqa (camaata) insanlıq hüququnu başa salmalı, bu hüquq uğrunda mübarizə aparmaq, "qorxunc və xəsafətli zülməti" dəf etmək bacarığı aşılamalıdır.

Faiqə görə, insanlıq yüksək və nəcib bir keyfiyyətdir, həqiqətpərəst və ədalətli olmaq deməkdir, insanlıq öz hüququnu bilmək, həyatda ən yüksək məqsəd olan azadlığı mühafiə edib, zalımların təcavüzünə yol verməmək, insalıq və ədaləti rəhbər tutub yaşamaqdır. O, 1912-ci ildə "İqbal" qəzetində yazırdı: "Mənim arzum vətənimin taleyi və millətimin tərəqqisidir. Bundan başqa, bir əməlim və bir arzum olmadığı kimi, bundan daha böyük və daha ali bir məqsəd təsəvvür edəmiyorum və edəməm"...

F.Köçərlinin fikrincə, Faiq milli məktəblərin gələcəyindən söhbət açır və yazırdı ki, bu gün bizim üçün heç bir məsələ, heç bir ehtiyac yoxdur ki, müəllimlərimiz qədər əhəmiyyətli olsun. Müəllim məsələsi yalnız bizim deyil, hər millətin ölüm-dirim məsələsidir. Deməli, hər millətin tərəqqi dərəcəsi müəllimlərin dərəcəsilə bilinər, müəllmlər millətlərin canlı "qradus"larıdır.

Ümumiyyətlə, publisistimiz tədris və tərbiyə məsələlərini vəhdətdə görür və göstərir ki, tədris prosesi, eyni zamanda, insanın əxlaqi keyfiyyətlərinin tərbiyəsində mühüm rol oynamalı, balalarda vətənə, millətə, həqiqətə, istiqbala, milli ədəbiyyat və mədəniyyətə sevgi aşılamalıdır. Milli ədəbiyyat ziyalıların əlində parlaq bir məşəldir...

XX əsrin əvvəllərində digər demokratik mütəfəkkirlər və publisistlər kimi, Ömər Faiq də dinə, Allah ideyasına qarşı açıq şəkildə çıxış etmirdi. Əhalinin böyük əksəriyyəti dindar olduğu bir şəraitdə onların dini heysiyyəti ilə hesablaşmamaq, xalqın azadlıq mübarizəsinə xeyir deyil, zərər vurardı. Publisistimizin sözləri ilə desək, islam ehkamları şüurları elə dondurmuş, beyinləri elə kütləşdirmişdi ki, siyasi cəhətdən inkişaf etmiş xalq maarifi xurafatdan, işığı qaranlıqdan seçə bilmirdi... Faiq əfəndi mollaları, elmsiz və savadsız olduqlarına görə kəskin tənqid edir, onların yetişdirdiyi uşaqları isə "yazıq" adlandırırdı.

Faiq keçmişin zərərli adətlərinə qarşı barışmaz mövqe tutmuşdu. Ata və anaların çoxları "başlıq" deyilən behə qızlarını zorla sevmədikləri, istəmədikləri və yaşlı qocalara verdiklərinə Qafqazın hər yerində rast gəlmişəm. Bu, qızları sevmək və sevilmək hüququndan məhrum etmək deməkdir.

Publisistimiz qadın hüququ və ləyaqətinin müdafiəsi uğrunda demokratik qüvvələrlə birlikdə fəal mübarizə aparır, cahil din xadimlərinin qadın ləyaqətini tapdalayan hər cür moizələrinə ("Qadın nədir, küçəyə çıxdı nədir?", "Qadını yanına salıb başqa yerə apardın nədir" və sair) kəskin atəş açır, feodal qayda-qanunlarına zərbə endirirdi. O, "Canavarlar" adlı məqaləsində ərə getmək barədə adı təsəvvürü belə olmayan kiçik yaşlı qızlara qarşı vəhşi münasibəti kəskin atəşə tutur və yazırdı: "...Bir ac qurd bir zəif quzunu tutub boğur. Biz bu qurda heyvan deyirik. Amma qırx beş-əlli yaşında zorba bir hacı, məşədi, ya kərbalayi balaca qızı tutub boğanda, biz buna adam deyirik. Bu cür qız uşaqlarının pəhləvanlar çəngində çığırıb - bağırmağını çox müsəlmanlar eşidib, çox analar görüb. Amma hər kəs eşidib, qulaqlarını tutub ki, eşitməsin, hər kəs görüb, gözlərini yumub ki, görməsin və belə-belə indiyədək bu işlərin hamısı çıxıb gedib".

"Qız Qalası" adlı məqaləsində isə, Faiq qız uşağı doğulanda, ailədə ona olan münasibətə nəzər salır, qızın ərə köçürülməsi mərasimini təsvir edir. "Elə ki, qız uşağı səkkiz yaşına çatır, bir gün görür ki, evlərinə üç nəfər arvad xeylağı gəldi. Arvadlar bir qədər qızın anası ilə danışıb gedirlər. Qız anasından soruşur: bu arvadlar nəyə görə gəlmişdilər? Ana cavab verir ki, "bu, sənə borc deyil".

Axşam olur - qızın atası gəlir evə. Qızın anası ilə xəlvətcə bir söz danışandan sonra qızı çağırırlar və deyirlər: a qız, indi yekələnib, ağıllı-başlı qız olubsan, get ayaqlarını yu, təmiz olsun və çadrasız küçəyə çıxma və hər kəs bundan sonra səni danışdırsa danışma, çünki indi dəxi ayıbdı. Maşallah, sən ağıllı-başlı yekə qız olubsan.

Sabahkı günü haman üç nəfər arvad yenə gəlirlər... Yenə qız anasından soruşur ki, bu arvadlar yenə nədən ötəri gəlmişdilər. Yenə anası cavab verir ki, "sənə borc deyil".

Bir neçə gündən sonra qız baxıb görür ki, deyəsən, işlər indi özgə işə oxşayır, gələn-gedən, qışqırıq, filan və filan. Qız yenə anasından soruşur ki, "bu, nə qışqırıqdı". Anası yenə cavab verir ki, "sənə borc deyil".

Axırda qohum-qardaşlardan bir-iki arvad xeylağı yığışır. Qızı zornan tutub uzadırlar yerə, qaşlarının tüklərindən bir neçəsini qopardırlar, qaşlarına və gözlərinə bir az qara mürəkkəb sürtürlər, yanaqlarına bir az gülnar qırmızı yaxırlar, alnına və üzünə bir az gəc sürtürlər, başının tüklərindən bir az kəsib tez qayıdırlar, sonra qızı durğuzurlar ayağa, çıxardırlar küçəyə, qabağına bir ayna tuturlar və başlayırlar mizləməyə. Qız ağlayır, gözlərinin yaşını tökür, haray-dad eləyir ki, "axı məni hara aparırsınız?"

Arvadlar yenə qıza deyirlər: "Çox danışma, atan gəlib qulaqlarını kəsər. Yəni səkkiz yaşında qızı öz evindən zorla çəkə-çəkə, mizləyə-mizləyə, qorxuda-qorxuda aparıb qatırlar bir özgə kişinin evinə və sonra qayıdıb gəlirlər. Qız ağlaya-ağlaya qalır, özgə kişinin evində nə qədər yalvarır ki, "ana, sən Allah, sən getmə buradan, barı sən də qal mənim yanımda". Amma heç kəs qıza qulaq vermir, çünki qız uşağı evdə bir şey deyil, başdan olmağı hamıdan məsləhətdir.

Sonra qızın qohum-qardaşları qayıdıb gələndən sonra bir zorba kişi gəlir qızın yanına".

Faiq məqalənin sonunda yazır ki, ruslar, qıza kim zor eləsə, onu tutub Sibirə, katorqaya göndərirlər, biz isə qıza zor eləyən kişini küçədə görəndə, deyirik: "Allah mübarək eləsin".

Həmin məqalənin məqsədi aydındır. Faiq ailədə qıza pis münasibəti, onu gənclik sevincindən, sevmək və sevilmək hüququndan məhrum edən adət-ənənələrə nifrət edir, bunları insanlıqdan uzaq, iyrənc bir hal adlandırır və deyirdi ki, qıza bu cür münasibət xalqımızın ümumi geriliyinin ifadəsidir və bu, dözülməz bir haldır.

"Qızların tərbiyəsi və rus-yapon davası" adlı məqalədə Faiq "Qızlara tərbiyə vermək lazımdırmı?" sualına cavab verərək yazırdı: "Müsəlmançılıq aləmi, bina olunandan indiyə kimi, mollalarımız hər handa və həmişə deyiblər ki, qızlara yazı-pozu öyrətmək haramdır. Ondan ötrü ki, yazı bilsələr, akuşqadan aşnalarına kağız yazıb tullarlar".

F.Köçərli yazır: "Faiq bu məsələni xalqın gələcəyi ilə əlaqəli götürür və belə bir fikir irəli sürürdü ki, qızın oxuyub təhsil alması gələcəkdə yaxşı tərbiyəçi olması deməkdir. O, ailədə qadın-kişi münasibətlərinə toxunur, qadının kişilərlə eyni hüquqda olmasını, qadının insanlıq ləyaqətinə hörmət edilməsini qeyd edirdi.

"Söhbət" adlı məqalədə Ömər Faiq kişinin qadın üzərində hökmranlığını "əsaslandıran" və müdafiə edən şəriət qanunlarını pisləyir.

Faiq, xüsusilə, "Molla Nəsrəddin" jurnalında qadınların hüququ məsələsinə dair müxtəlif məzmunlu, rəngarəng üslublu məqalələr yatırmışdır. O, deyirdi ki, hər bir millətin tərrəqqisi qadınların vəziyyəti ilə ölçülür. Savadlı və ziyalı qadın savadlı da nəsil tərbiyə edib, yetişdirə bilər. Faiqin fikrincə, millətin cəhalət girdabında yaşamasının əsas səbəblərindən biri qadınların savadsızlığıdır. Publisistimiz qadın azadlığını, xalqın iqtisadi-siyasi azadlığını və ailə-məişət münasibətlərini ictimai münasibətlərin tərkib hissəsi hesab edirdi.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Dubay turistlər üçün ən bahalı şəhərdir!

"Global Destination Cities Index" reytinqində Dubay turistlər üçün ən bahalı şəhər kimi birinci yeri tutub.



AZƏRTAC xəbər verir ki, "Mastercard"ın tərtib etdiyi reytinqə əsasən, səyahətçilər Dubay şəhərində orta hesabla 537 dollara yaxın pul xərcləyirlər. Qlobal reytinqdə ikinci yeri Paris (301 dollar), 3-cü yeri isə Sinqapur (286 dollar) tutub. İlk beşliyə Seul (181 dollar) və Banqkok (173 dollar) daxildir.

İlk beşliyə daha yaxın olan ölkələr sırasına Tokio (154 dollar), London (153 dollar) və Nyu-Yorkun (147 dollar) da adı var. Reytinqin tərtib edilməsi üçün "Mastercard" turistlərin 162 ölkədə etdiyi ödənişlər barədə məlumatlardan istifadə edib.

# Əbu-Dabidə köpək balıqlarına görə çimərlik bağlanıb



Əbu-Dabinin sahilboyundakı "AlBahar" çimərliyi bu sularda kit köpəkbalığı aşkar edildikdən sonra bağlanılıb. AZƏRTAC Əbu-Dabinin Ətraf Mühitin Mühafizəsi üzrə Agentliyinə istinadla xəbər verir ki, şəhər çimərliyi oktyabrın 12-dək bağlı olacaq.

Məlumatda qeyd edilir ki, kit köpəkbalıqları sülhsevər məxluq olsalar da, bu addım vətəndaşların təhlükəsizliyi məqsədi ilə atılıb. Əmirliklərin hakimiyyət orqanları qayıq sahiblərini ehtiyat tədbirlərinə riayət etməyə çağırıb.

# Vegetarian həyat tərzi heç də həmişə məqbul deyil

Müasir formada olmasa da, antik dövrdə də vegetarianlıq elementləri olub. Həmin dövrün məlumatlarında müəyyən xəstəliklər zamanı vegetarianlığa bənzər pəhriz növlərinin tövsiyə olunması məlumdur. Lakin bəzi xəstəliklərdə heyvan mənşəli məhsullardan istifadə edilməsi vacibdir.



Bu barədə AZƏRTAC-a Azərbaycan Tibb Universitetinin qidalanma və kommunal gigiyena kafedrasının müdiri İbrahim Əhmədov məlumat verib. O, deyib: "Vegetarianlıq növləri hər bir orqanizmə uyğun seçilməlidir. Məsələn, orqanizmdə turşuluq yüksəkdirsə, vegetarianlığın tətbiqi müsbət nəticə verir. Ciddi vegetarianlıq podaqra və böyrək daşı xəstəliklərində geniş tətbiq olunan vasitədir. Lakin ürək-damar sistemi xəstəlikləri, qaraciyər patologiyası, beyin qan dövranı pozuntuları zamanı eyni səviyyədə yanaşmaq düzgün deyil. Uşaqlar, inkişafda olan yeniyetmələr və çəki azlığı olanlar üçün həmin rejimə əməl etmək məqbul sayılmır".

İbrahim Əhmədovun dediyinə görə, bəzi ciddi xəstəliklər zamanı isə vegetarianlığın müəyyən növləri nəinki məsləhət görülür, hətta vacib hesab edilir: "Bitki mənşəli və süd məhsulları ilə qidalanma demək olar ki, bütün xəstəliklərdə məqsədəuyğundur".

## ELAN

Azərbaycan Dövlət İqtisad Universitetinin Texnologiya və dizayn fakültəsinin İT informasiya ixtisası üzrə II kurs tələbəsi Fəzliəhmədov Çingiz İlhamoviç oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

səs

Son səhifə 12 oktyabr

# Azərbaycan gimnastı Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının çempionu olub



Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Olimpiya Oyunlarında Azərbaycanı təmsil edən idman gimnastı Səməd Məmmədli və bədii gimnastımız Yelizaveta Luzan çıxışlarını yekunlaşdırıblar. AZƏRTAC Azərbaycan Gimnastika Federasiyasına istinadla xəbər verir ki, Oyunlarda gənc gimnastımız Y.Luzan komanda hesabında qızıl medal qazanıb. Olimpiya Oyunlarının yeni formatına əsasən, gimnastika növləri üzrə təmsilçilər yalnız fərdi hesabda mübarizə aparmayıblar. Bu dəfə onlar ulduz gimnastların adlarını daşıyan 12 komandaya bölünüblər.

Dördqat Olimpiya çempionu Simona Baylzın komandasında Y.Luzan ilə yanaşı, idman gimnastikası, bədii gimnastika, batut və akrobatika növləri üzrə Bolqarıstan, Avstraliya, Çin, Sinqapur, Vyetnam, İspaniya, İtaliya, Rusiya, Ukrayna, Cənubi Afrika və Macarıstandan olan idmançılar yer alıblar. Onlar fərdi çıxışlarının yekunlarına görə əldə etdikləri xal hesabı ilə komandalarına qızıl medal qazandırıblar.

Beləliklə, milli komandamızın aktivində 2 qızıl və 1 bürünc medal var. Bundan əvvəl cüdoçu Vüqar Talıbov (66 kq) qızıl, taekvondoçu Cavad Ağayev (63 kq) bürünc medal qazanıblar.



# Ronaldonun vəkilindən ŞOK açıqlama: "Müqavilə oğurlanıb"

Kriştano Ronaldonun yeni vəkili Peter Kristansen futbolçunun zorlamada ittiham olunması ilə bağlı yayılan xəbərlərə münasibət bildirib. Qol.az-ın "Goal.com"a istinadən yaydığı xəbərə görə, o, bu iddiaları təkzib edib: "Məlumatlar uydurmadır". Hüquqşünas mətbuata yazılı açıqlamasında jurnalistlərin məsuliyyətsiz davrandıqlarını deyib. Lakin Kristiansen Ronaldonun Ketrin Mayorqaya (Ronaldonun zorladığı iddia olunan qadın) susması qarşılığında 375 min dollar pul verməsi ilə əlaqədar müqavilə bağladığını inkar etməyib: "Bu müqavilə heç də etiraf deyil. Kriştiano Ronaldo yalnız məsləhətləri dinlədi və müqaviləni çirkin ittihamların qarşısını almaq üçün imzalayıb. Sonrada bu müqavilə oğurlanıb və xeyli təhrif edilmiş halda mətbuata ötürülüb".

Vəkil həmin məlumatların Ronaldoya qarşı qara piar olduğunu söyləyib: "Şübhəsiz ki, Kriştiano Ronaldo bütün ittihamları qətiyyətlə rədd edir. Ronaldonun günahkar olduğunu göstərən sənədlər tamamilə uydurmadır". Qeyd edək ki, son günlərdə Kriştiano Ronaldonun keçmiş model Ketrin Mayorqa təcavüz etməsi və Ketrinə susması qarşılığında 375 min avro verməsi ilə bağlı iddialar irəli sürülüb.

# Arda Turanın Berkay Şahini vurması ilə bağlı istintaq başlayıb



Türkiyə milli komandasının və "Başakşehir" klubunun futbolçusu Arda Turanın müğənni Berkay Şahini vurması ilə əlaqədar istintaq başlayıb. SİA-nın məlumatına görə, müğənninin həyat yoldaşı Özlem Şahin 31 yaşlı yarımmüdafiəçini prokurorluğa şikayət edib. A.Turanın istintaqa çağırılacağı bildirilir. Qeyd edək ki, A.Turan gecə klublarının birində müğənni ilə insident yaşayıb və onun burnunu qırıb. Futbolçunun müğənninin həyat yoldaşına sataşdığı iddia olunur.



# "Liverpul"un hücumçusu "Qalatasaray"ın hədəfində

"Liverpul"un hücumçusu Divok Orici karyerasını Türkiyədə davam etdirə bilər. Qol.az-ın yerli mətbuata istinadən yaydığı xəbərə görə, belçikalı futbolçu "Qalatasaray"ın maraq dairəsinə düşüb. Bu mövsüm hücum xəttində ciddi problem yaşayan İstanbul təmsilçisi 23 yaşlı forvardı qış transfer pəncərəsində icarəyə götürmək istəyir.

Qeyd edək ki, Orici son olaraq icarə əsasında "Volfsburq"da çıxış edib. Mövsümün əvvəlində yenidən "Liverpul"a qayıdan hücumçu heç bir oyunda meydana çıxmayıb.

**Baş redaktor:**

**Bəhruz Quliyev**

**Baş redaktorun müavinləri:**

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**